DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 06 (368) / İYUN 2022-Cİ İL




Biz indi bütün sərhəd boyunca yerləşmişik. Bütün sərhədlərdə hərbi hissələr yaradılmışdır. Müharibədən keçən ilyarım ərzində biz gecə-gündüz çalışmışıq ki, ordumuzu daha da gücləndirək, daha da müasir silahlarla təchiz edək, sərhəd boyunca bütün əlverişli mövqelərə sahib olaq, yerləşək və buna nail olduq. Altı ay bundan əvvəl Hadrutda birinci komando hərbi hissəsi açılmışdır. Bu gün Kəlbəcərdə ikinci komando hərbi hissəsi açılır. Növbəti komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək. Bu, bizim gücümüzü daha da artıracaq.

Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür - həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da Ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək. Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".

Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir.

**Prezident İlham Əliyev**
Kəlbəcər rayonunda hərbi hissənin açılışındakı nitqindən
Kəlbəcər, 27 iyun 2022-ci il

## DÖVLƏT KOMİTƏSİNİN ƏMƏKDAŞLARI "DÖVLƏT QULLUĞUNDA FƏRQLƏNMƏYƏ GÖRƏ" MEDALI İLƏ TƏLTİF OLUNUBLAR

Prezident İlham Əliyev dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup dövlət qulluqçusunun orden və medallarla təltif edilməsi haqqında 2022-ci il 22 iyun tarixli Sərəncam imzalayıb. Sərəncama əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları Abdullayev Yalçın İsa oğlu, Əhmədov Cavid İmran oğlu, Nəsirov Rauf Qüdrət oğlu, Yusubova Şəlalə Mayıl qızı "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunublar.

23 iyun Azərbaycanda dövlət qulluqçularının peşə bayramı kimi qeyd olunur. Dövlət qulluqçularının peşə bayramı Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamı ilə təsis edilib.

# PREZİDENT İLHAM ƏLİYEV: "AZƏRBAYCAN İSLAM HƏMRƏYLİYİNİN GÜCLƏNDİRİLMƏSİ İŞİNDƏ ÇOX FƏAL ÇALIŞIR"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Tahanı qəbul edib.

Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət prioritetlərində müsəlman ölkələri ilə əməkdaşlığın xüsusi yer tutduğunu qeyd edərək, bu əməkdaşlığın həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla aparıldığını bildirib. Dövlətimizin başçısı ölkəmizin İƏT ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsi işində çox fəal çalışdığını qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatına üzv olan bir çox müsəlman ölkələri ilə də sıx əməkdaşlıq edir. Bununla əlaqədar dövlətimizin başçısı bu günlərdə Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis ediləcəyini məmnunluqla vurğulayıb.

Prezident İlham Əliyev həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanın haqq işini, ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirib. Dövlətimizin başçısı işğal illərində ermənilər tərəfindən tarixi və mədəni abidələrimizin, o cümlədən məscidlərimizin vəhşicəsinə darmadağın edildiyini bildirərək bunu xalqımıza qarşı mədəni soyqırımı, bütün müsəlman ölkələrinə qarşı təhqir kimi dəyərləndirib.

Azərbaycan Prezidenti işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma layihələrindən, o cümlədən dini abidələrimizin bərpası istiqamətində görülən işlərdən danışıb.

İƏT-in Baş katibi Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini qeyd edib. Hissein Brahim Taha Azərbaycanın İƏT üçün çox önəmli ölkə olduğunu bildirərək dövlətimizin başçısının lider kimi fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, İƏT Prezident İlham Əliyevin üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətindəki mövqeyinin dünya miqyasında təşviq edilməsi üçün yorulmaz səylər göstərir.

Prezident İlham Əliyev BMT tərəfindən də təqdir edilən və İslam Əməkdaşlıq Təşkilatı ilə Avropa Şurasının birgə əməkdaşlığının təzahürü olan Bakı Prosesinin mədəniyyətlərarası dialoqa verdiyi töhfəni xüsusi qeyd edib.

Görüşdə İƏT-ə üzv ölkələr arasında həmrəyliyin önəmi vurğulanıb, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artdığı bildirilib və onun qarşısının alınması istiqamətində birgə fəaliyyətin aparılmasının vacibliyi vurğulanıb.

# "AZƏRBAYCANDA DİNİ TƏHSİL – MÖVCUD DURUM VƏ VƏZİFƏLƏR"







İyunun 13-də Azərbaycan Respublikası Milli Məclisi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan İlahiyyat İnstitutu (Aİl) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə "Azərbaycanda dini təhsil – mövcud durum və vəzifələr" mövzusunda konfrans keçirilib.

Açılış nitqi ilə çıxış edən AİI rektoru Aqil Şirinov müasir Azərbaycanda dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulması və inkişafının məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib: "Bu sahədə Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılan müdrik siyasi-mənəvi xətt Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmiz bütün sahələrdə olduğu kimi, din sahəsində də nümunəvi ölkəyə çevrilir".

Dini təhsil sahəsindəki problemlərə toxunan A.Şirinov qeyd edib ki, din spesifik istiqamət olduğu üçün bu sahədə tədris ölkə gerçəklikləri nəzərə alınaraq həyata keçirilməlidir. AİI rektoru ali təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumat verərək, qarşıda duran vəzifələrdən danışıb.

Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli əvvəlcə tariximizin və taleyimizin ən şərəfli səhifələrindən olan 44 günlük Vətən müharibəsində qələbəmizə diqqət çəkib. O bildirib ki, xalqımız dini qadağaların mövcud olduğu sovet dövründə belə dini inancını qoruya bilmişdir. Din təhsili də milli dəyərlərimiz, eləcə də ölkəmizin tolerant mühiti nəzərə alınmaqla həyata keçirilməlidir.

DQİDK sədri Mübariz Qurbanlı konfransın əhəmiyyətindən danışaraq, dövlət-din münasibətləri modeli, eləcə də dini ali və orta təhsil mövzusunda silsilə tədbirlərin keçirilməsini vacib hesab etdiyini bildirib.

Əvvəllər məscid yanında fəaliyyət göstərən mədrəsələrdə din təhsili ilə yanaşı, dünyəvi təhsilin də verildiyini diqqətə çatdıran M.Qurbanlı orta məktəblərdə şagirdlərin dinlərlə bağlı müəyyən biliklərə yiyələnmələrinin vacibliyini də vurğulayıb: "Müasir dövrdə dini təhsil sahəsində əsas vəzifələrdən biri də gənclərin bütün dinlər haqqında ətraflı məlumatlarının olmasıdır. Dindən istifadə edən radikal və ekstremist qrupların təsiri altına düşməmələri üçün gənclərə dini biliklər düzgün öyrədilməli, dini ali və orta təhsil yüksək səviyyədə tədris olunmalıdır".

QMİ sədrinin müavini Fuad Nurullayev öz çıxışında gənc nəslin tərbiyəsinin ailənin başlıca funksiyalarından biri olduğunu vurğulayıb. Qeyd edib ki, bu məsələ valideynlərin ən mühüm vəzifələrindən biridir.

Millət vəkili Anar İsgəndərov bildirib ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımız yenidən milli-mənəvi dəyərlərinin sahibi kimi çıxış etməyə başladı. Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlət-din münasibətlərinin tənzimlənməsinin və inkişafının əsası qoyuldu. AİI-nin fəaliyyətinə uğurlar arzulayan A.İsgəndərov ali təhsil müəssisəsinin tələbələrinin ölkəmizdə dövlət-din münasibətlərinin inkişafında, eyni zamanda milli-mənəvi dəyərlərimizin qorunmasında böyük rol oynacağına ümid etdiyini bildirib.

Millət vəkili Ceyhun Məmmədov Azərbaycanın dünyada unikal məkan olaraq tanındığını, tarixən ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh və anlaşma şəraitində yaşadıqlarını diqqətə çatdırıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin din sahəsində atdığı ən böyük addımlardan biri 2001-ci ildə DQİDK-nın yaradılması haqqında Sərəncamı olub. C.Məmmədov vurğulayıb ki, Ümummilli Liderin siyasətinin layiqli davamçısı cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması dövlətin din sahəsinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov dinin ideoloji məsələ olduğunu vurğulayaraq, onun tədrisinin vacibliyini nəzərə çatdırıb. Həmçinin AİI-nin tələbələrinə qarşılarında duran önəmli vəzifələrində uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Könül Bünyadzadə fəlsəfə ilə ilahiyyat elmlərinin qarşılıqlı öyrənilməsinin əhəmiyyətinə toxunub, dini təhsilin düşüncənin çərçivələrini genişləndirdiyini vurğulayıb.

AİI İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova isə öz çıxışında orta məktəblərdə tədris olunan "Həyat bilgisi" dərsliyində dini biliklərin statistikasını göstərərək, ziddiyyətli faktlara və təkrarlara rast gəlindiyini vurğulayıb. Həmçinin məlumatların dinlərlə əlaqəli sistemli şəkildə təqdim olunmamasına da diqqət çəkib. Gələcəkdə belə dərsliklərin yazılması zamanı uşaqların yaş psixologiyasının nəzərə alınmasının vacibliyini nəzərə çatdırıb. Məruzəçi "Həyat bilgisi" dərsliyində, ümumilikdə, dinin necə təmsil olunduğu, onun hansı anlayışlarla əlaqələndirilərək təqdim edildiyi, dini biliklər aşılanan zaman hansı üslubdan yararlanıldığı, Azərbaycanın özünəməxsus dini demoqrafiyasının hansı səviyyədə diqqətə alındığı, dini tolerantlığın Azərbaycan modelinin necə əks olunduğu məsələlərinə də aydınlıq gətirib.

AİI İlahiyyat fakültəsinin dekan müavini Asəf Qənbərov cəmiyyətin dini baxımdan maarifləndirilməsi, din təhsilinin metodologiyası baxımından onun tədrisinin həyata keçirilməsi və din təhsilinin məzmun baxımından hansı mövzuları əhatə etməsi barədə təqdimatla çıxış edib. O, din təhsilində metodoloji yanaşmalara toxunaraq, dünya təcrübəsində din dərsinin statusu barədə nümunələr göstərib. Azərbaycanda din təhsili metodologiyası və dövlət-din münasibətlərində onun hansı yollarla tənzimləndiyi barədə fikirlərini bölüşüb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ YARDIMLIDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyunun 17-də Masallı, Cəlilabad və Yardımlı rayonlarından olan vətəndaşların müraciətlərinə baxıb.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində baş tutan qəbulda Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müraciətlər cavablandırılıb, qaldırılan məsələlərin həlli ilə əlaqədar müvafiq göstərişlər verilib.



# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ ABŞ-DA SƏFƏRDƏDİR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun rəhbərlik etdiyi, tərkibinə Azərbaycan Respublikasında Katolik kilsəsinin apostol prefekturası, Bakı şəhəri Azərbaycan Bibliya Cəmiyyəti Xristian dini icması, eləcə də Avropa yəhudiləri və Gürcü yəhudilərinin Bakı dini icmalarının rəhbər və təmsilçiləri daxil olan Azərbaycan nümayəndə heyəti Amerika Birləşmiş Ştatlarının (ABŞ) paytaxtı Vaşinqton şəhərində səfərdədir.

Səfər çərçivəsində nümayəndə heyəti bir sıra ikitərəfli görüşlər keçirib.

İyunun 27-də Holokost Memorial Muzeyində olan nümayəndə heyəti Holokostun İnkarı və Antisemitizm Təşəbbüsünün Beynəlxalq Maarifləndirmə təşkilatı üzrə direktoru Tad Stanke, eləcə də qurumun ərəb auditoriyası üzrə mütəxəssisi Mina Abdelmalak və Etika, Din və Holokost Proqramının Koordinatoru ilə görüşüblər.



Eyni zamanda, Amerikada fəaliyyət göstərən "AJC", "AIPAC", "JCSEJ" və "B'nai B'rith" kimi nüfuzlu yəhudi təşkilatlarının təmsilçiləri, Senatın Təxsisatlar Komitəsinin və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Komissiyasının üzvü, senator Con Buzmanın Aparatının rəhbəri Toni-Mari Hiqins ilə görüşlər keçirilib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri S.Heydərov və din xadimləri ikitərəfli müzakirələrdə ölkəmizin dünyəvi dövlət olduğunu, müxtəlif dini icmaların dostluq və mehribanlıq şəraitində birgə yaşadığını, respublikamızdakı mövcud dövlət-din modeli, o cümlədən cəmiyyətimizin tolerantlıq və multikulturalizm ənənələrinin bir nümunə olduğunu vurğulayıblar. Həmçinin qeyd edilib ki, bu ənənələri daha da gücləndirmək üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl siyasət həyata keçirilir, dini icmaların inkişafı üçün onlara maddi yardımlar edilir.

Görüşlər zamanı ölkəmizin dövlət-din münasibətləri sisteminin beynəlxalq aləmdə model kimi qəbul edildiyini vurğulayan sədr müavini Səyavuş Heydərov respublikamızda irqi-dini zəmində ayrı-seçkiliyin, antisemitizm halının baş vermədiyini, əksinə Azərbaycanın dinlər və sivilizasiyalar arasında dialoqu təşviq edən əsas dövlətlərdən biri olduğunu bildirib. O, həmçinin Ermənistan işğalından azad edilmiş ərazilərdə abadlıq-quruculuq işlərinin aparıldığını, mənsubiyyətindən asılı olmayaraq bütün dini abidələrin bərpa olunduğunu diqqətə çatdırıb.

Görüşlərin sonunda Dövlət Komitəsinin nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən bəhs edən kitablar təqdim edilib.

Səfər çərçivəsində nümayəndə heyətinin ABŞ Dövlət Departamentinin Beynəlxalq Din Azadlığı Ofisinin, ABŞ Din Azadlığı Komissiyasının, eləcə də Amerika Diyanət Mərkəzi, Dünya Baptist Alyansı və müxtəlif dini təşkilatların nümayəndələri ilə görüşlər keçirməsi, müzakirələr aparması nəzərdə tutulur.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov iyunun 10-da ABŞ-nin Azərbaycandakı səfirinin müavini Maykl Dikerson ilə görüşüb.

Qonağı salamlayan sədr müavini ölkəmizdəki multikultural və həmrəylik mühiti, dövlətin tolerantlıqla bağlı ölkə daxilində və beynəlxalq miqyasda həyata keçirdiyi siyasət və fəaliyyət, habelə Azərbaycan həqiqətləri barədə məlumat verib. Bildirib ki, hazırkı mərhələdə ölkədə milli və dini tolerantlıq, eləcə də multikulturalizm mühitinin qorunması və möhkəmləndirilməsi, insanların dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini təhlükəsizliyin bərqərar olması dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. S.Heydərov, eyni zamanda Azərbaycanda zərərli dini ideyalar yaymayan, dinlərarası münasibətlərə xələl gətirəcək şəkildə fəaliyyət göstərməyən bütün dini icmalara zəruri şəraitin yaradıldığını, eləcə də onlara dövlətimiz tərəfindən maddi və mənəvi dəstək göstərildiyini vurğulayıb.

Görüş zamanı ABŞ Dövlət Departamentinin Beynəlxalq Din Azadlığı ilə bağlı 2021-ci il üzrə hesabatına diqqət çəkən sədr müavini sənəddə 44 günlük Vətən müharibəsindəki parlaq qələbəmiz nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə tarixi-dini abidələrin Ermənistan tərəfindən talana, vandalizmə, təhqirə məruz qalması, məhv edilməsi barədə faktların yer almasından məmnunluğunu dilə gətirib. Bununla yanaşı, hesabatda həqiqəti əks etdirməyən, real faktlara əsaslanmayan bir sıra qeyri-obyektiv məlumatların da yer almasından təəssüfləndiyini bildirib. Azərbaycan nümayəndə heyətinin 28-30 iyun tarixlərində Beynəlxalq Din Azadlığı Sammitində iştirak məqsədilə ABŞ-yə səfər edəcəyini xatırladan S.Heydərov bu sahədə hazırlanan hesabatların daha obyektiv və əsaslı tərtib edilməsi üçün Beynəlxalq Dini Azadlıq üzrə ABŞ Komissiyası ilə də görüşün keçirilməsinin labüdlüyünə toxunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən Maykl Dikerson Azərbaycanın zəngin dini tolerantlıq tarixinə malik olmasını, o cümlədən ölkəmizə rəğbətini dilə gətirib. Həmçinin keçirilən görüşlərin əhəmiyyətini qeyd edərək əməkdaşlığın və müzakirələrin daha da intensivləşdirilməsinin vacibliyini vurğulayıb.



Dövlət Komitəsində daha bir görüş iyunun 16-da baş tutub. DQİDK-nın sədr müavini Səyavuş Heydərov "Xilaskar" Yevangelik Lüteranların Bakı dini icmasının sədri Vera Nesterova, icmanın pastoru Lemke Qothard Günter Valter ilə görüşüb.

İcmanın fəaliyyətinə dair bir sıra məsələlərin müzakirə olunduğu görüşdə keçiriləcək tədbirlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin icmanın fəaliyyəti ilə bağlı qanunvericiliyin tələbləri izah edilərək qaldırılan məsələnin həllinə köməklik və dəstək göstəriləcəyi diqqətə çatdırılıb.

İcma üzvləri sonda Azərbaycanda dini icmaların, multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafına göstərilən davamlı diqqət və qayğıya görə dərin minnətdarlıqlarını ifadə ediblər.

# SƏYAVUŞ HEYDƏROV: ULU ÖNDƏRİN AZƏRBAYCAN XALQI QARŞISINDA XİDMƏTLƏRİ MİSİLSİZDİR




"Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri misilsiz və əhatəlidir. Zaman keçdikcə biz bunu daha dərindən dərk edəcəyik". Bu sözləri Trend BİA-nın "Sahil Kərimli ilə Aktual" müəllif layihəsinə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov deyib.

Qeyd edib ki, azərbaycançılıq dünənin, bu günün, sabahın məfkurəsidir. Müstəqilliyimizin ilk illərində Azərbaycanda xaos, özbaşınalıq, hakimiyyətsizlik, səriştəsizlik hökm sürürdü.

"Bir tərəfdən erməni təcavüzü genişlənirdi, ərazilər işğal olunurdu, digər tərəfdən separatizm genişlənirdi. Eyni zamanda dini ideologiyaların ölkəmizdə təbliği artmışdı. Sanki həmin dövrdə Azərbaycan bir poliqona çevrilmişdi. Belə bir dövrdə xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev Azərbaycana dəvət olundu və rəhbərlik etməyə başladı. Ulu Öndər üçün də çox ağır illər idi. Böyük təcrübəyə malik dahi insan, əlbəttə, bir çıxış yolu tapmalı idi və tapdı. Həmin dövrdə hərc-mərcliyi aradan qaldırmaq, sosial iqtisadi tənəzzülü dayandırmaq, ölkədəki vətəndaş müharibəsinə son vermək üçün mükəmməl bir birləşdirici ideologiyaya ehtiyac var idi. Məhz həmin dövrdə Ulu Öndərin özünə də böyük təzyiqlər, manеələr var idi. İlk dəfə azərbaycançılıq ideasını müzakirəyə çıxaranda ona böyük təzyiqlər var idi. Ancaq buna baxmayaraq, o öz iradəsi, cəsarəti ilə insanlarımızı, ziyalılarımızı inandırdı ki, bunun bu gün Azərbaycan üçün alternativi yoxdur", - deyə o bildirib.

S.Heydərov həmçinin vurğulayıb ki, azərbaycançılıq məfkurəsi həmin dövrdə bir fikirdən mükəmməl ideologiyaya çevrildi. Bunun sayəsində Azərbaycanda artıq tənəzzüldən tərəqqiyə doğru addımlar atıldı.

"Artıq həmin dövrdə insanlarda özünə inam yarandı, fəallıq başladı. Bu dövrə nəzər salsaq görərik ki, həmin dövrdə yüzlərlə gəncimiz dini təhsil adı altında xarici ölkələrə çıxarılırdı. Əlbəttə, onda ilahiyyatçılara ehtiyac var idi. Ancaq görünən tərəf o idi ki, onlara dini təhsil ilə yanaşı, hərbi təlimlər də keçirilirdi. Artıq o təhsil elə formada idi ki, təhsil alan gənclər milli kimliyini unudurdular. Dini kimlik üstünlük təşkil edirdi və o dini kimlik də həmin ölkənin dini ideologiyasına əsaslanırdı.

Azərbaycan gəncliyi, xüsusilə, Azərbaycanın yaxın keçmişini dərindən öyrənməli və nəticə çıxarmalıdır. Bu gün azərbaycançılıq ideologiyasının faydalı olmasına diqqət yetirək. Ulu Öndər Heydər Əliyevin sayəsində Azərbaycan tənəzzüldən tərəqqiyə doğru addımlar atdı. Əsrin müqaviləsi imzalandı, digər islahatlar həyata keçirildi, ölkəmizdə birlik, həmrəylik formalaşdı", - deyə sədr müavini əlavə edib.

# "BİZİ UCALDAN DƏYƏRLƏR" MÜSABİQƏSİNİN QALİBLƏRİ MÜKAFATLANDIRILIB

Mənəvi Dəyərlərin Təbliği Fondunun və Xəzər rayonu Binə qəsəbəsi "İmam Həsən" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Bizi ucaldan dəyərlər"adlı konfrans keçirilib. Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, "Davam" Gənclər Hərəkatının sədri Nihad Allahyarlı, Xəzər rayonu Binə qəsəbəsi "İmam Həsən" məscidi dini icmasının sədri Eldayaq Hüseynov, İTV-nin aparıcısı Jalə Həsənli, "ASAN radio"nun Baş redaktoru İlkin Kərimov, gənclər, tələbələr və dini icma üzvlər iştirak ediblər.

Dəyərlərin cəmiyyətdəki rolunun müzakirə olunduğu tədbirdə çıxışçılar tərəfindən maraqlı fikirlər səsləndirilib, xüsusilə də gənclərin bu sahədəki fəaliyyətlərinin əhəmiyyəti vurğulanıb. Həmçinin dini icma tərəfindən bu cür layihənin həyata keçirilməsinin təqdirəlayiq olduğu bildirilib.

Tədbirin sonunda Fondun təşkil etdiyi "Bizi ucaldan dəyərlər" müsabiqəsinin qalibləri mükafatlandırılıb.



# "AZƏRBAYCANÇILIQ: DİNİ HƏMRƏYLİK VƏ BİRGƏYAŞAYIŞIN QARANTI"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı, Azərbaycan Bəhailəri Dini Mərkəzinin təşəbbüsü ilə ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmaların nümayəndələrinin Qəbələ və Oğuz rayonlarına səfəri təşkil edilib. Səfər çərçivəsində iyunun 17-də Qəbələ rayonu Nic qəsəbəsindəki Müqəddəs Yelisey, Müqəddəs Məryəm Ana kilsələri, Azərbaycan Udi Ocağı, Yalağaclı məhəllə Cümə məscidi, eyni zamanda Oğuz rayon Yuxarı məhəllə sinaqoqu ziyarət edilib.

İyunun 18-də isə Oğuz rayonunda "Azərbaycançılıq: dini həmrəylik və birgəyaşayışın qarantı" mövzusunda konfrans keçirilib.

Öncə DQİDK-nın tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən hazırlanmış "Heydər Əliyev və Azərbaycançılıq" filmi nümayiş olunub.

Konfransı giriş sözü ilə açan Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov ölkəmizdə hökm sürən nümunəvi dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulduğunu, bu sahədə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideyası fonunda birgəyaşayış ənənələrinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Vurğulayıb ki, Azərbaycanda dünyaya nümunə ola biləcək tolerantlıq mövcuddur və ölkəmizdə müxtəlif dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov bildirib ki, konfransın Oğuz rayonunda keçirilməsi təsadüfi deyildir. Bura müxtəlif dinlərə etiqad edən etnosların dini icmalarının, kilsə, sinaqoq və məscidlərin mövcud olduğu, eləcə də müxtəlif azsaylı xalqların birgə yaşadığı regionlarımızdan biridir. S.Heydərov qeyd edib ki, müstəqilliyimizin ilk illəri xaosun, hakimiyyətsizliyin, hərc-mərcliyin baş alıb getdiyi, erməni təcavüzkarlığının sürətlə genişləndiyi, separatizmin tüğyan etdiyi, həmçinin dini zəmində ayrı-seçkiliyin kök saldığı, qeyri-ənənəvi dini cərəyanların, ideologiyaların yayılmağa başladığı mürəkkəb bir dövr idi. Həmin dövrdə birləşdirici və uzaqgörən ideologiyaya ehtiyac var idi. Məhz belə bir vaxtda Ümummilli Liderin azərbaycançılıq ideologiyasını ərsəyə gətirərək onu dövlət ideologiyasına çevirməsi qısa zaman kəsiyində ölkəmizdə sabitliyin bərqərar olmasını təmin etdi. S.Heydərov çıxışında azərbaycançılıq ideologiyasında tolerantlıq və multikulturalizm amilinə də toxunub. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası çərçivəsində formalaşdırdığı siyasət bu gün Azərbaycanı özünəməxsus multikulturalizm, tolerantlıq və dövlət-din münasibətləri nümunəsinin uğurlu modeli kimi dünyada tanıdır.

Konfransda Qafqaz Müsəlmanları İdarəsinin Şəki-Oğuz bölgəsi üzrə qazısı Kamran Məmmədov, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Andrey Bezotosnı, Azərbaycan Respublikasının Katolik kilsəsinin nümayəndəsi Toral Ağayev, Alban-udi xristian dini icmasının sədri Robert Mobili, Oğuz şəhər yəhudi dini icmasının sədri Şirin Şuminov, Bakı şəhəri "Alov" xristian dini icmasının sədri İdris Məmmədov, Qax rayonu "Müqəddəs Georgi" kilsəsi gürcü-pravoslav dini icmasının sədri İaqo Kasiaşvili, Azərbaycan Bəhailər Dini Mərkəzinin sədri Ramazan Əsgərov məruzə ilə çıxış ediblər. Natiqlər milli dəyərləri ilə dünyaya nümunə olan Azərbaycanda yüksək dövlət-din münasibətlərinin mövcudluğundan, hər kəsin vahid qardaşlıq, birgəyaşayış şəraitində yaşamasından danışıblar. Vurğulanıb ki, Azərbaycan xalqının öz müqəddəratını həll etdiyi 44 günlük Vətən müharibəsi dönəmində də dinindən, dilindən, milliyyətindən asılı olmayaraq, bütün dinlərin nümayəndələri bir yumruq kimi birləşdi.

Bildirilib ki, dövlət tərəfindən ölkəmizdə fəaliyyət göstərən bütün dini icmalara maddi və mənəvi dəstək göstərilir. Heydər Əliyev Fondu tərəfindən bütün dinlərə məxsus tarixi-dini abidələr, ziyarətgahlar yenidən qurulur və yeniləri tikilir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən elə siyasət qurulub ki, bu siyasətin təməlində insana verilən dəyər dayanır.

Dövlətin din xadimlərinin maddi təminatının yüksəldilməsi üçün onlara maddi dəstək verilməsinin Prezident İlham Əliyev tərəfindən atılmış uzaqgörən, məntiqli və mütərəqqi addım olduğu diqqətə çatdırılıb.

# "VƏTƏN MÜHARİBƏSİNDƏKİ QƏLƏBƏMİZDƏ XALQIMIZIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİN ROLU"



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Dövlət Sərhəd Xidmətinin (DSX) birgə Tədbirlər Planına uyğun olaraq iyunun 21-də DSX-nin Sahil Mühafizəsində "Vətən müharibəsindəki qələbəmizdə xalqımızın milli-mənəvi dəyərlərinin rolu" mövzusunda növbəti seminar keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edib və abidə önünə gül dəstələri düzüblər.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov çıxış edərək dini və etnik zənginliyə malik xalqımızın tolerantlıq ənənələrinin uğurla inkişaf etdirildiyini, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi azərbaycançılıq məfkurəsinin ölkəmizin tərəqqisində müstəsna rolu olduğunu xüsusi olaraq qeyd edib. Azərbaycançılıq ideologiyası bütün xalqların və dinlərin nümayəndələrinin ortaq dəyərlər ətrafında birləşməsini özündə təcəssüm etdirir.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin multikulturalizm, tolerantlıq dəyərləri təbliğ edən ölkələrdən olduğu, milli-dini birlik ideyasının Azərbaycanın dövlət siyasəti səviyyəsində həyata keçirildiyi, hər bir vətəndaşın dini etiqad azadlığının təmin olunmasına dəstək göstərildiyi bildirilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində müxtəlif millətlərə və dinlərə mənsub Azərbaycan vətəndaşlarının çiyin-çiyinə döyüşmələrinin, "Dəmir Yumruq" ətrafında həmrəylik nümayiş etdirmələrinin bu istiqamətdə həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsi olması vurğulanıb.

Seminarda ölkəmizdəki tolerantlıq ənənələrinə, dini etiqadı siyasiləşdirməklə milli təhlükəsizliyimizə və mənəvi dəyərlərimizə təhlükə yarada bilən meyillərlə mübarizədə hər bir vətəndaşın həssaslıq göstərməsinin vacibliyi qeyd olunub.

Tədbirin sonunda DQİDK-nın sifarişi ilə hazırlanan "Heydər Əliyev və Azərbaycançılıq" sənədli filmi şəxsi heyətə nümayiş etdirilib.

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB



Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Sahib Nağıyevin başçılıq etdiyi, DQİDK, Azərbaycan İlahiyyat İnstitutu (AİI), Xarici İşlər Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşlarının daxil olduğu nümayəndə heyəti 6-11 iyun tarixlərində Gürcüstanda səfərdə olub.

Nümayəndə heyəti Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və səfirlik əməkdaşlarının iştirakı ilə Tbilisidə Heydər Əliyev adına parkda Ümummilli Liderin büstü qarşısında xatirəsini ehtiramla anıb, abidə önünə gül dəstələri düzüblər.

Daha sonra nümayəndə heyəti Tbilisidəki Cümə məscidini ziyarət edib.

Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov qonaqlara məscidin tarixi, burada saxlanılan nadir tarixi, mədəni və mənəvi abidələr barədə məlumat verib.

Azərbaycan nümayəndə heyətinin üzvləri Tbilisidə mövcud olmuş Şah Abbas məscidindən qalmış abidə, eləcə də XVIII əsrdə əl ilə yazılmış və cəmi 5 nüsxədən ibarət Qurani-Kərimin nadir nüsxəsi ilə tanış olublar.

Sonra məscidin dini idarəsində görüş keçirilib.

Ramin İgidov bu yaxınlarda Azərbaycanın Gürcüstandakı səfirliyinin və SOCAR-ın dəstəyi ilə ölkəmizə səfərlərini xatırladıb, işğaldan azad edilmiş ərazilərdə gördükləri erməni vandalizmindən dəhşətə gəldiklərini bildirib. O, Şuşada və işğaldan azad edilmiş digər ərazilərdə aparılan tikinti-quruculuq işlərindən razılıqla danışıb.

Rəhbərlik etdiyi qurum barədə məlumat verdikdən sonra R.İgidov deyib ki, bu gün Gürcüstanda 300-dən çox məscid var. Onlardan 28-i son illərdə tikilib, 300-ə yaxını təmir olunub.

***

İyunun 7-də Tbilisi Ruhani Akademiyasında görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında bütün sahələrdə, xüsusən də dini qurumlar arasında əməkdaşlıq, dini təhsil, dövlət-din münasibətləri barədə geniş fikir mübadiləsi aparılıb.

Rektor Giorgi Zviadadze Azərbaycan və Gürcüstan arasındakı əlaqələrdən danışıb, hər iki ölkənin dövlət və hökumət başçıları, dini liderləri arasındakı dostluq münasibətləri nəticəsində əlaqələrimizin daha da inkişaf etdiyini və möhkəmləndiyini bildirib.

Qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadzenin səyləri nəticəsində qədim tarixə malik olan münasibətlərimiz yeni müstəvidə inkişaf edib.

DQİDK-nın sədr müavini Sahib Nağıyev ölkəmizdə dövlət-din münasibətləri, dini təhsil, tolerantlıq mühiti barədə ətraflı məlumat verib. Dinindən, dilindən asılı olmayaraq bütün vətəndaşlarımızın Azərbaycanın 44 günlük Vətən müharibəsində qəhrəmancasına iştirak etdiyini vurğulayıb və bunu tolerantlığın bariz nümunəsi adlandırıb. Bildirib ki, erməni vandalları işğal etdikləri ərazilərdəki məscidləri, eləcə də xristian dini abidələrini dağıdıb, viran qoyublar. Azərbaycan dövləti onların hamısının bərpası istiqamətində müəyyən tədbirlər görür.

AİI-nin rektoru Aqil Şirinov ölkəmizdə dini təriqətlərin tam azad və sərbəst fəaliyyət göstərmələrindən, onların hamısına dövlətimiz tərəfindən maliyyə yardımının ayrılmasından danışıb.

Rektor, həmçinin institutun fəaliyyəti, beynəlxalq əlaqələri, AİI ilə Tbilisi Ruhani Akademiyası arasında təhsil sahəsində əməkdaşlığın perspektivləri barədə danışıb.

Nümayəndə heyəti Dini Məsələlər üzrə Dövlət Agentliyində də olub. Görüşdə Agentliyin nümayəndələri qonaqlara Gürcüstan dövlətinin din siyasəti, bu sahədə mühüm dəyişikliklər və yeni çağırışlar haqqında hərtərəfli məlumat veriblər. Həmçinin həyata keçirilən layihələr, sovet dövründə dəymiş maddi və mənəvi zərərin ödənilməsi üçün dini qurumların maliyyələşdirilməsi, məscidlərə statusun verilməsi və digər mühüm mövzular barədə məlumatlar qonaqların diqqətinə çatdırılıb.

Görüşdə iki ölkənin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında mümkün əlaqələrin gücləndirilməsi, eyni zamanda Gürcüstanın Ruhani Akademiyası və Azərbaycanın İlahiyyat İnstitutu arasında memorandumların imzalanması məsələsi də nəzərdən keçirilib. Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və səfirliyin məsul əməkdaşları da iştirak ediblər.

Daha sonra Tbilisidəki "Alulbeyt" mərkəzinin ofisindəki görüşdə iştirak edən nümayəndə heyətini mərkəzin Gürcüstan üzrə rəhbəri Faiq Nəbiyev qarşılayıb və fəaliyyəti barədə onlara məlumat verib.

Görüşdə Azərbaycan Gürcüstan əlaqələri, ölkədəki dini və ümumi vəziyyət müzakirə olunub. Səmimi mühitdə davam edən görüş zamanı Faiq Nəbiyev qonaqlara, qonaqlar da ona hədiyyə təqdim ediblər.

# ALBAN-UDİ XRİSTİAN DİNİ İCMASININ ÜZVLƏRİ SUQOVUŞAN VƏ TALIŞA SƏFƏR EDİBLƏR

Alban-Udi xristian dini icmasının üzvləri 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə Tərtər rayonunun işğaldan azad olunan Suqovuşan qəsəbəsi və Talış kəndinə səfər ediblər.

İcma üzvləri Suqovuşan qəsəbəsində və Talış kəndində Alban məbədlərini ziyarət edib, dini ayinlər həyata keçiriblər, respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların ruhuna dualar oxuyublar.

Alban-Udi xristian dini icmasının sədr müavini Rafik Danakarı jurnalistlərə müsahibəsində deyib: "Bu gün Silahlı Qüvvələr Günü ilə əlaqədar Talış kəndində və Suqovuşan qəsəbəsində olan məbədləri ziyarət etməyə gəlmişik. Zabitlərimizi, əsgərlərimizi təbrik edirik. Arzu edirik ki, Azərbaycan torpaqlarında bir daha müharibə olmasın. Biz sülhsevən xalqıq, qonaqpərvər xalqıq. Bu gün də gəlmişik şəhidlərin ruhuna dualar edək, şamlar yandıraq, qazilərə Allahdan şəfa diləyək".



# "MƏNƏVİ İNTİBAH: DİNİ ETİQAD AZADLIĞININ QARANTI KİMİ"



İyunun 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" Xristian dini icmasının birgə təşkilatçılığı ilə "Mənəvi intibah: dini etiqad azadlığının qarantı kimi" mövzusunda konfrans keçirilib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi, Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" Xristian dini icmasının sifarişi ilə ərsəyə gətirilən "Mənəvi intibah" sənədli filminin nümayişi ilə başlayan tədbirdə çıxış edən icma sədri Rasim Xəlilov bildirib ki, ölkəmizdə milli-mənəvi dəyərlərin, etnik rəngarəngliyin qorunmasına dövlət səviyyəsində xüsusi önəm verilir. Azərbaycanda müxtəlif dinlərə məxsus ibadətgahların, dini tədris müəssisələrinin sərbəst şəkildə fəaliyyət göstərməsi, dini bayramların yüksək səviyyədə qeyd olunması istiqamətində müxtəlif dini konfessiya nümayəndələrinə dövlət tərəfindən lazımi dəstək verilməsi uğurlu multikulturalizm və tolerantlıq modelinin tərkib hissəsini təşkil edir.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov mövzunun aktuallığına diqqət çəkərək bildirib ki, dünyada baş verən qlobal və regional kataklizmlərdən xilas yolu mənəvi intibahdan keçir. Dinin siyasiləşdirilməsinin fəsadlarından, insanlığın, bəşəriyyətin böhranlardan, müharibələrdən, xüsusilə hazırda dünyada mövcud olan mənəvi böhrandan çıxış yolu Azərbaycanda formalaşmış multikultural, tolerantlıq, birgəyaşayış ənənələridir. S.Heydərov vurğulayıb ki, Azərbaycan dövlətinin dinlə bağlı siyasəti dini münasibətləri demokratik normalar əsasında inkişaf etdirən, cəmiyyətdə dini müxtəlifliyi, vicdan və etiqad azadlığını təmin edən fəaliyyət sistemidir. Ölkəmizdə dini etiqad sahəsində möhkəm dayaqlara malik hüquqi mexanizmlər mövcuddur. Azərbaycanda din azadlığı prioritet məsələdir və onun qorunması ölkənin təhlükəsizliyinin başlıca qarantıdır. Dünyada etimadsızlıq mühitinin formalaşdığı bir zamanda Azərbaycan tolerantlıq nümunəsidir, çünki multikulturalizm və birgəyaşayışı həyat tərzinə çevirməyi bacarıb.

Beynəlxalq aləmdə, ölkəmizdə baş verən dini proseslər, təhdidlər, onların qarşısının alınması yollarına da toxunan S.Heydərov qeyd edib ki, din pərdəsi altında cərəyan edən proseslərin artım dinamikasını nəzərə alaraq dini təhlükəsizlik məsələsinin daim diqqət mərkəzində saxlanılması olduqca vacib məqamdır. Nümunəvi vəhdət, həmrəylik mühitinin qorunub saxlanılması, mənəvi intibaha doğru irəliləyişin sürətləndirilməsi, o cümlədən mövcud dini zəminli təhlükələrin qarşısının alınması üçün maarifləndirmə tədbirlərinin səmərəliliyinə xüsusi önəm verilir.

Sədr müavini çıxışının sonunda ölkəmizdəki milli birliyi və həmrəyliyi pozmaq xülyası ilə yaşayan, din pərdəsi altında ideoloji təxribatlar törətməyə cəhd göstərən, ictimai rəyi çaşdırmağa və bundan faydalanmağa çalışan qruplara qarşı sosial şəbəkə istifadəçilərini, xüsusilə də, gənclərimizi diqqətli olmağa çağırıb.



Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov çıxış edərək bildirib ki, elmi-texniki inkişafın zirvəsinə çatmış bəşəriyyətin sülhpərvərlik, birgəyaşayış, dini və ideoloji dözümlülük baxımından o qədər də məsafə qət etməməsi paradoksal haldır. Hətta elmi-texniki inkişaf əsri olan XX əsr, eyni zamanda mədəniyyətlərarası və dövlətlərarası dözümsüzlüyün də "inkişaf" əsri olub. Çox təəssüf ki, bu proses indi də davam edir, dünyanın müxtəlif bölgələrində dini dözümsüzlük və fanatizm halları tüğyan edir. Məhz bu səbəbdən tolerantlıq ənənəsinin inkişaf etdirilərək dünyanın bütün bölgələrində bərqərar edilməsi hazırda bəşəriyyətin qarşısında duran ən mühüm məsələlərdəndir. İslam dünyasının bir hissəsi olan Azərbaycanda da tarixən müxtəlif dinlərin və məzhəblərin nümayəndələri sülh şəraitində yaşayıb, hər hansı bir diskriminasiya halı ilə qarşılaşmayıblar. Fəxrlə deyə bilərik ki, ölkəmiz bütün dinlərin nümayəndələrinin dostluq şəraitində yaşadığı və dini zəmində heç bir qarşıdurmanın yaşanmadığı məkandır.

Konfransda Bakı Beynəlxalq Multukulturalizm Mərkəzinin əməkdaşı Araz Qurbanov, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası şurasının katibi Mefodi (Elnur Əfəndiyev), Azərbaycan Yəhudiləri dini icmasının sədri, Avropa Yəhudilərinin Bakı dini icmasının baş ravvini Şneor Seqal, Bakı şəhəri "Həyatverici Lütf" dini icmasının sədri Elşən Hüseynzadə, Bakı Krişna Şüuru dini icmasının sədri Mahir Əhmədov, Sumqayıt şəhəri "Alov" xristian dini icmasının sədri Murad İslamov və Bakı şəhəri Qaradağ rayonu Qobustan qəsəbəsi "Şıxlar" məscidi dini icmasının sədri Nazim Lazımov dini-mənəvi dəyərlər sahəsində görülən işlərdən söz açaraq ölkəmizdəki ümumbəşəri və multikultural dəyərlərə hörmətə, hər bir din mənsubuna göstərilən diqqətə görə minnətdarlıqlarını ifadə ediblər.

# AZƏRBAYCAN NÜMUNƏSİ

## *Ölkəmizdəki dövlət-din münasibətləri özünün unikallığı ilə dünyada örnəkdir*

Dünyəvi dövlətin ərazisində yaşayan müasir və demokratik cəmiyyətlərdə birgə yaşayış modelinin qurulması əsas şərtlərdən biridir. Qloballaşan, dini ədavətin, dinlərarası münaqişələrin və ya hər hansı müxtəlif din daşıyıcıları arasında qeyri-normal münasibətlərin hökm sürdüyü dünyada yalnız uğurlu və düşünülmüş siyasət sayəsində humanist cəmiyyət formalaşdırmaq mümkündür. Azərbaycan uzun illərdir bu siyahıda dinindən, irqindən, milliyyətindən asılı olmayaraq, hər bir şəxsin bərabər hüquqlu, dinc şəkildə və birgə yaşadığı məkan olaraq ön sıralarda yer almağı bacarır. Azərbaycan öz tolerantlığı, dini plüralizmi, İslam həmrəyliyini yüksək səviyyədə qoruması hesabına mənfi tendensiyalardan, məzhəb qarşıdurmalarından çox-çox uzaqdır.

Təbii ki, belə bir sağlam mühitin mövcud olmasında, formalaşmasında dövlətin, onun həyata keçirdiyi siyasətin mühüm əhəmiyyəti var.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlət-din münasibətlərində də yenidən quruluş prosesi başlandı. Milli-mənəvi dəyərlərinə sahib çıxmaqla yanaşı, ictimai-siyasi cəhətdən sekulyar bir cəmiyyət modelini nümayiş etdirən ölkəmizdə müstəqillikdən sonra dini dəyərlərin sürətlə yayılması təəccüb doğurmadı. Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıdanda ölkədə dinlə bağlı durum ürəkaçan səviyyədə deyildi, mürəkkəb və ziddiyyətli vəziyyət hökm sürürdü. Azərbaycanı belə bir çətin şəraitdən yalnız yüksək dövlətçilik təcrübəsi olan bir lider çıxara bilərdi. Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, məqsədyönlü, uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətləri ilə bağlı vəziyyəti düzgün qiymətləndirib dönüş yarada bildi. Dini sahədəki gərginlik aradan götürüldü, radikal qruplaşmaların fəaliyyətinin qarşısı alındı və dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində önəmli tədbirlər həyata keçirildi. Ümummilli Liderin sayəsində ilk dəfə olaraq Azərbaycan xalqı öz dini və milli bayramlarını heç bir maneə olmadan sərbəst şəkildə qeyd etməyə başladı, zəvvarlar rahat şəkildə dini və mənəvi ehtiyaclarını ödəmək üçün müqəddəs torpaqlara getməyə başladılar. Ulu Öndərin 1994-cü ilin iyul ayında müqəddəs Məkkə və Mədinəyə ümrə ziyarəti də onun öz dininə və milli-mənəvi dəyərlərinə necə bağlı bir şəxsiyyət olduğunu göstərirdi. Ölkəmiz qısa zamanda bir çox müsəlman təşkilatlarının üzvü seçilərək beynəlxalq səviyyəli simpoziumların və konfransların keçirilməsinə ev sahibliyi etdi. Bütün bunlarla yanaşı, ölkəmizdəki ibadət evlərinin tikintisi, təmiri və bərpası da dövlət tərəfindən xüsusi diqqət və qayğı ilə həyata keçirilməyə başladı. Əlbəttə ki, bütün bunlar Ulu Öndərin xalqa olan diqqətinin və milli mənəviyyata olan hörmətinin təzahürü idi.

Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpasına və yenidən qurulmasına xüsusi önəm verdi. Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə imzaladığı sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verildi. Xüsusi qeyd edilməli məqam ondan ibarətdir ki, dövlət qayğısı, diqqəti yalnız İslam dininə xas olan tarixi abidələrə, ibadət məkanlarına deyildi. Eyni zamanda Azərbaycanda mövcud olan qeyri-islam tarixi-mədəni abidələri, kilsələr də dövlət qayğısı nəticəsində təmir olunurdu. Ümummilli Lider ikinci dəfə hakimiyyətə gəldikdən sonra ölkədə yaşayan, fəaliyyət göstərən digər dinlərin nümayəndələrinə də həssaslıqla, diqqət və qayğı ilə yanaşırdı.

davamı səh. 7

# AZƏRBAYCAN NÜMUNƏSİ

## Ölkəmizdəki dövlət-din münasibətləri özünün unikallığı ilə dünyada örnəkdir



əvvəli səh. 6

Sovet dövründən baxımsız vəziyyətdə qalan məscidlər, digər ibadət məkanları ilə yanaşı, kilsələr də təmir edilir, ölkəmizdə bizimlə bərabər şəkildə yaşayan, lakin fərqli dinlərə sitayiş edənlərin ixtiyarına verilirdi. Ölkəmizdəki müxtəlif dinlərə ibadət edən vətəndaşların inanclarına hörmətlə yanaşılması, onların vicdan və etiqad azadlığının təmin olunması üçün bütün qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. 1995-ci ildə qəbul edilən Konstitusiyamıza vicdan və dini etiqad azadlığını təmin edən, dövlət-din münasibətlərini tənzimləyən müddəalar daxil edildi. Dövlət quruculuğunun dünyəvi mahiyyət daşıması, dinin dövlətdən ayrı olması, bütün dinlərin qanun qarşısında bərabər sayılması, insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd dinlərin yayılmasının və təbliğinin qanunla qadağan olunması bu sənəddə öz əksini tapdı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlət-din münasibətlərində yeni bir mərhələ başlandı. Ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Uzun illər ibadət ocaqlarının, dini icmaların fəaliyyətinə, dini ayinlərin icrasına, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu.1992-ci ildə qəbul olunan, sonuncu dəfə 2022-ci ildə bir sıra dəyişikliklər edilən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə dini mərkəzlərin, idarələrin, qurumların və tədris müəssisələrinin fəaliyyəti tənzimləndi. 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldıqdan sonra ölkədə dövlət-din münasibətlərində yeni bir mərhələyə qədəm qoyuldu. Dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarının tələblərinə riayət olunmasının təmin edilməsi, dini icmaların qeydiyyata alınması, qeydiyyatının ləğvi, dini qurumların və təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi səlahiyyəti Dövlət Komitəsinə həvalə olundu.

Sevindirici haldır ki, Ümummilli Lider Heydər Əliyevin başlamış olduğu siyasət cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan mədəniyyətlər, dinlər, sivilizasiyalararası dialoqa dair nüfuzlu beynəlxalq tədbirlər keçirir, milli-mənəvi irsimizlə yanaşı, bəşəri dəyərlərə sahib çıxır, dini icmalara yardım və himayəsini əsirgəmir. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, yenidən tikilir. Müstəqillik dövründə 2 minə yaxın məscid, digər dinlərin məbədləri tikilib, pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri həyata keçirilib.

Günümüzdə Azərbaycan öz tolerantlığı, dini plüralizmi qoruyub saxlaması ilə İslam həmrəyliyinə də öz layiqli töhfəsini verir. Bu gün hər kəsə məlumdur ki, Azərbaycanda hər bir İslam və digər dini icmalar qanunvericilik çərçivəsində sərbəst qeydiyyatdan keçmək və fəaliyyət göstərmək imkanına malikdir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu din siyasəti və onun tərkib hissəsi kimi tarixi dini abidələrin - məscid, kilsə, sinaqoqların bərpası, milli-mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrimizin təbliği və təşviqi, zəngin mədəni irsimizin beynəlxalq aləmdə tanıdılması Heydər Əliyev Fondu tərəfindən də uğurla həyata keçirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu qısa vaxtda məscidlərin, ziyarətgahların, xristian və yəhudi məbədlərinin tikintisi və bərpasında, Azərbaycan həqiqətlərinin, o cümlədən ölkəmizdəki dini və milli dözümlülük ənənələrinin beynəlxalq aləmdə tanıdılmasında böyük uğurlara imza atıb. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Təzə Pir, İçərişəhər Cümə və Həzrət Məhəmməd, Əjdərbəy məscidləri, dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi, Dəmirçi məscidi yenidən qurulub. Heydər Əliyev Fondu tərəfindən "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkənin müxtəlif yerlərində çoxsaylı məscid və ibadət evləri bərpa edilib. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki "Müqəddəs Məryəm Ana" kilsəsi, Kiş kilsəsi təmir edilib. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Daşkəsəndəki Cümə məscidində, Xəzər rayonu, Binə qəsəbəsindəki Möhsün Səlim və İmam Rza məscidlərində, Mərdəkan qəsəbəsindəki Pirhəsən ziyarətgahı və Heydər Cümə məscidində, Buzovna qəsəbəsindəki Cümə məscidində, Gəncə şəhərindəki Şah Abbas və Həzrət Zeynəb məscidlərində yenidənqurma və əsaslı təmir-bərpa işləri görülüb. Fondun xətti ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Təsadüfi deyildir ki, 44 günlük Vətən müharibəsində tarixi zəfərimizdən sonra işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinə start verilən zaman dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilk olaraq bu ərazilərdə tarixi və dini abidələrin bərpasını qarşıya mühüm vəzifə kimi qoydu. Şanlı qələbənin əldə edilməsi nəticəsində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq işləri aparılmağa başlanıldı, o cümlədən erməni vandalizminə məruz qalmış tarixi-dini abidələrin bərpası və yaxud yenidən qurulması sahəsində mühüm addımlar atıldı. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə Daşaltı və Hadrutda, Suqovuşan qəsəbəsində məscidlərin təməlinin qoyulması, Zəngilan "İmam Hüseyn", Ağdam "Cümə" və "Qiyaslı" məscidlərinin yenidən qurulması işlərinə start verilməsi, Şuşa Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa və Saatlı məscidlərinin və Qazançı kilsəsinin bərpa edilməsi Azərbaycan dövlətinin milli-mənəvi, tolerant dəyərlərə verdiyi önəmin göstəricisidir. Prezident İlham Əliyevin Tərtər rayonunun Talış kəndinə səfəri zamanı orada ermənilərin dağıtdığı alban-udi və rus-pravoslav kilsələrində olması, hər iki ibadətgahda təmir və bərpa işlərinin aparılacağını bildirməsi, bütün dinlərə tolerant yanaşmanın növbəti təzahürüdür.

İşğal dövründə vandalizmə məruz qalan mədəni-dini obyektlər sırasında İslam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edir. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. İndiyə qədər minlərlə abidəyə yenidən "nəfəs" verən Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə də dini abidələrin bərpası üçün işləri davam etdirir. Fondun həyata keçirdiyi layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması işləri həyata keçirilir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış ibadət yerlərinin bərpası üzrə işlərin bir qismi artıq başa çatdırılmışdır. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçəlir və Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidilir, dualar oxunur.

Qeyd olunmalı vacib məqamlardan biri də Prezident İlham Əliyevin 2017-ci il 10 oktyabr tarixli sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasıdır. Milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək qiymət və dəstək göstərən dövlət başçımızın bu addımı, eyni zamanda Dövlət Komitəsinə olan yüksək etimadın göstəricisidir. Fondun əsas missiyası Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir.

Eyni zamanda milli kadrların hazırlanması, savadlı mütəxəssislərin yetişdirilməsi və ilahiyyat elminin inkişafının təmin edilməsi məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması dövlətin din sahəsində atdığı mühüm addımlardandır. Prezident İlham Əliyevin İnstitutun yeni binasının açılışında iştirak etməsi din sahəsinə böyük diqqət və qayğının növbəti təzahürlərindən biridir. Bölgənin aparıcı ali dini təhsil müəssisələrindən biri olan Azərbaycan İlahiyyat İnstitutu milli kadrlar hazırlayır və bu istiqamətdə mühüm addımlar atır. İnstitut dini xarici dairələrin nəzarətində olmayan, dinə məhdud çərçivədə deyil, geniş prizmadan yanaşmağı bacaran, fəaliyyətində dünyəvilik, tolerantlıq və multikulturalizm kimi Azərbaycan gerçəkliklərini nəzərə alan, xalqımızın tarixi ənənələrinə söykənən, yüksək dini-mənəvi mühitin qorunub saxlanmasına və inkişaf etdirilməsinə xidmət edən, dini fəaliyyətin təşkili sahəsində yüksək dini və dünyəvi savada malik ixtisaslı kadrların hazırlanmasını təmin edən mötəbər bir elm ocağı olmağı qarşısına məqsəd qoyub.

Bir sözlə, bütün bu görülən işlər birbaşa onu göstərir ki, Azərbaycanda dövlət-din münasibətlərinin xüsusi modeli mövcuddur. Keçmişə əsaslanan dövlət-din münasibəti modeli bugünkü reallıqları nəzərə alaraq məhz gələcəyə yönəlmiş modeldir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri özünün unikallığı ilə dünyada örnəkdir. Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi ilk növbədə dinlə bağlı siyasətin sağlam, düzgün istiqamətdə aparılmasıdır. Ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri təkmilləşməkdə və möhkəmlənməkdədir. Hazırda Azərbaycan Respublikasında dini durum sabitdir, bu sahədə cərəyan edən proseslər və tendensiyalar nəzarətdədir. Dini-ideoloji təbliğat sahəsində maarifləndirmə işlərinin əhatə sferasının daha da artırılması, milli-mənəvi dəyərlərin təbliği və təşviqi istiqamətində işlərin davam etdirilməsi, ölkədəki mövcud dini konfessiyalararası münasibətlərin, multikultural və tolerant mühitin qorunub saxlanılması, eləcə də beynəlxalq əlaqələr sahəsində fəaliyyətin genişləndirilməsi prioritetlər sırasındadır. Cəmiyyətimizin, ölkəmizin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var.

Məhz görülmüş bu işlər və atılmış addımlar sayəsində Azərbaycanda dövlət-din münasibətlərinin özünəməxsus nümunəsi formalaşıb. Bu nümunə Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət sayəsində daim təkmilləşdirilir və inkişaf etdirilir.

**Amil CAVADOV,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri
"Azərbaycan" qəzeti

# DQİDK-NIN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR ŞÖBƏSİNİN AÇIQLAMASI



Azərbaycan beynəlxalq aləmdə ictimai-siyasi sabitlik şəraitində dini tolerantlığın və multikultural dəyərlərin inkişaf etdiyi, bütün dini konfessiyalara bərabər münasibətin göstərildiyi, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunduğu, dini-mədəni müxtəlifliyin qorunduğu dövlət kimi tanınır. Dünyanın nüfuzlu dövlət xadimləri, dini liderləri, elm və mədəniyyət nümayəndələri Azərbaycanın dövlət-din modelinin bir çox ölkələr üçün örnək olduğunu bildirirlər. Buna görə də qlobal səviyyədə dini həmrəyliyə, dinlərarası və mədəniyyətlərarası dialoq mövzusuna həsr olunmuş beynəlxalq tədbirlərin müxtəlif vaxtlarda Azərbaycanda keçirilməsi heç də təsadüfi deyildir. Bütün bunlar Azərbaycanda dini münasibətlərin konstitusion normalara əsaslandığını, vicdan və dini etiqad azadlığının yüksək səviyyədə təmin olunduğunu bir daha əyani şəkildə göstərir.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu uğurla həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan davamlı inkişaf edir. Ölkəmizdə ictimai-siyasi sabitlik daha da möhkəmlənmiş, makroiqtisadi sabitlik və yüksək iqtisadi artım təmin edilmişdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasəti nəticəsində 44 günlük Vətən müharibəsində şanlı qələbənin əldə edilməsi regional və beynəlxalq səviyyədə ölkəmizin mövqeyini daha da möhkəmləndirmişdir. Cəmiyyətin bütün sahələrində olduğu kimi, vicdan və dini etiqad azadlığının təmin edilməsində, dini-mədəni müxtəlifliyin qorunmasında Ulu Öndər Heydər Əliyevin milli ideologiya səviyyəsinə qaldırdığı azərbaycançılıq məfkurəsi mühüm rol oynayır.

Azərbaycan Prezidentinin sərəncamları ilə tarixi-dini abidələr, ziyarətgahlar bərpa edilir, yeniləri tikilir, dini qurumlara mütəmadi olaraq maliyyə yardımları ayrılır, o cümlədən milli-mənəvi və dini dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq hərtərəfli addımlar atılır. Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qarabağa səfərləri zamanı ilk olaraq məscidi ziyarət etməsi, bərpa-quruculuq işlərinin məhz dini ibadətgahlardan başlaması, Qarabağa və Şərqi Zəngəzura səfər zamanı yeni dini ibadət yerlərinin təməlinin qoyulması ölkə rəhbərliyinin dini-mənəvi irsə göstərdiyi diqqətin parlaq ifadəsidir. Qeyd etmək istərdik ki, Azərbaycan yenidən müstəqilliyini qazananda respublikada cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2253-dür. Bu günədək 992 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 955-i İslam, 37-si isə qeyri-islam (xristian – 26; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür. Habelə, respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir.

Amma görünən odur ki, yuxarıda göstərilənlərə rəğmən Azərbaycanın uğurlarından və mövqelərinin daha da güclənməsindən narahat olan bəzi dairələr vətəndaşların dini inancından sui-istifadə etməklə məkrli, destruktiv əməllərə rəvac verirlər. Aydındır ki, bu tipli çirkin əməllər multikultural və tolerant dəyərlərə söykənən Azərbaycan cəmiyyəti tərəfindən birmənalı olaraq rədd edilir. Demokratiya, qanunun aliliyi, unitarlıq və dünyəvilik prinsiplərinə söykənən Azərbaycan Konstitusiyasının əsaslarına zidd olaraq siyasi idarəçiliyi və həyat tərzini "şəriət qaydaları" adı altında təbliğ edən, özündə bir neçə nəfəri birləşdirən "təşkilat" və yaxud dərnək səviyyəli qruplar, əslində, dini pərdə altında gizlənmiş, insanların inanc və dini hisslərini istismar edən pozucu elementlərdən başqa bir şey deyillər. Əminliklə demək olar ki, bu cür elementlərin fitnəkar əməllərini xalqımız böyük ikrah hissi ilə qarşılayır və buna görə də onların çirkin niyyətləri beşiyindəcə iflasa məhkumdur.

Bu cür qərəzli və qeyri-sağlam mövqe tutan şəxslərə "dini təhsil" verib "ruhani" kimi yetişdirən bəzi xarici dövlətlərin dini mərkəzləri və digər təşkilatları 30 il düşmən tapdağı altında qalan və donuz axuru kimi istifadə edilən məscidlərimizə görə bir dəfə də olsun erməni qəsbkarlarına etiraz etməmişlər. Lakin onlar bu gün öz "kadrlar"ı vasitəsilə məscidləri inşa və bərpa edən, islami dəyərləri daim uca tutan müsəlman ölkəsində – Azərbaycanda "İslamı müdafiə" adı altında pozucu fəaliyyətə əl atır, sosial mediada dövlət qurumlarının əleyhinə şər və böhtan kampaniyasına rəvac verir, sülh və barışa böyük önəm verən İslam dəyərlərindən sui-istifadə edərək süni gərginlik yaratmağa səy göstərirlər.

Azərbaycana qarşı din pərdəsi altında ideoloji təxribatlar törətməyə cəhd göstərən pozucu təşkilatların təsiri altına düşmüş, xalqımıza məxsus dəyərləri əməlləri ilə aşındırmaq niyyəti güdən, xarici dairələrin əlaltısına çevrilən, ölkəmizdəki milli birliyi və həmrəyliyi pozmaq xülyası ilə yaşayan bu cür qruplar, onların havadarları çirkin niyyətlərindən əl çəkməlidirlər. Onlar unutmamalıdırlar ki, Azərbaycanda dünyəvi və demokratik dəyərlərə sadiq, milli kimliyinə hörmətlə yanaşan sağlam cəmiyyət və gənclik vardır. Ölkəmizdə aparılan dövlət siyasətinin əsas qayəsini məhz Vətənin bütövlüyü, Azərbaycanın tərəqqisi, vətəndaşların sülh və əmin-amanlıq şəraitində yaşamasının təmin olunması təşkil edir.

# DÖVLƏT KOMİTƏSİNİN ŞÖBƏ MÜDİRİ: "DİN XADİMİ OLMAQ İSTƏYƏNLƏRİN DİPLOMLARI CİDDİ ŞƏKİLDƏ YOXLANILACAQ"

"Müsahibə və attestasiyada iştirak etmək üçün sənədlər, xüsusilə də diplomlar ciddi şəkildə yoxlanılacaq". Bu fikri "Report"a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə səsləndirib. Şöbə müdiri qeyd edib ki, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 25 fevral 2022-ci ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 3-cü hissəsinə edilmiş dəyişikliyə və dövlət başçısının 11 mart 2022-ci il tarixli Fərmanına əsasən, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimlərinin təyin olunması Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (Dövlət Komitəsi) səlahiyyətləri sırasına daxil edilib. Dövlət Komitəsinin Kollegiyasının 22 aprel tarixli qərarı ilə "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimləri təyin olunması, attestasiya və tutduğu vəzifədən azad edilməsi Qaydası" (bundan sonra - Qayda) təsdiq olunub və müsahibə proqramı hazırlanıb. Eyni zamanda, Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondu və Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələrindən ibarət müsahibə və attestasiya komissiyalarının tərkibi müəyyənləşdirilib. Komissiyaların tərkibi müəyyənləşdirilərkən onların ilahiyyatçı mütəxəssislərdən ibarət olmasına xüsusi diqqət yetirilib. Belə ki, 7 nəfərdən ibarət Müsahibə Komissiyasının üzvlərinin hamısı, 9 nəfərlik Attestasiya Komissiyasının üzvlərindən 1 nəfər istisna olmaqla digərləri ilahiyyat təhsili almış və bu sahə üzrə fəaliyyət göstərmiş şəxslərdir.

O vurğulayıb ki, Qayda və müsahibə proqramı hazırlanarkən, komissiyaların tərkibi seçilərkən dünya praktikasından, Türkiyə, Özbəkistan, İordaniya kimi ölkələrin, eləcə də Qafqaz Müsəlmanları İdarəsinin təcrübəsindən geniş istifadə edilib. Müsahibə proqramının hazırlanmasında Azərbaycanda fəaliyyət göstərən dini ali və orta ixtisas təhsil müəssisələrinin tədris proqramları əsas meyar kimi götürülüb. Cari ilin may ayının 24-də Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimləri təyin olunması məqsədilə müsahibənin keçiriləcəyi elan edilib və sənəd qəbuluna başlanılıb. Namizədlər tələb olunan sənədləri elektron qaydada, həmçinin kağız daşıyıcılar vasitəsilə Dövlət Komitəsinə təqdim edə bilər. Sənəd qəbulu üçün "sened@scwra.gov.az" elektron poçtu fəaliyyət göstərir. Namizədlərə Dövlət Komitəsinin rəsmi internet saytında "Müsahibə və Attestasiya" bölməsindən müsahibə və attestasiya ilə bağlı qanunvericilik aktları, komissiya üzvləri, müsahibə proqramı, vakant vəzifələr, o cümlədən müraciət məqsədilə ərizə formasını əldə etmək üçün şərait yaradılıb. Müsahibədə iştirak etmək istəyən şəxslər Dövlət Komitəsinin Mərkəzi aparatına və bölgə şöbələrinə zəng və ya bilavasitə müraciət etməklə, qurumun sosial şəbəkə hesablarına yazmaqla da maraqlandıqları suallara cavab ala bilərlər.

Elan olunmuş müsahibədə "Dini etiqad azadlığı haqqında" Qanunun 4-1.2-ci maddəsinə və Qaydanın 1.2.1-ci bəndinə əsasən, yalnız ali dini və orta ixtisas təhsili olan şəxslər iştirak edə bilər. Onlara imam, imam müavini, dini ayinlərin icraçısı – müəzzin və qadın dini ayinlərin icraçısı vəzifələrindən birini seçmək hüququ verilib. Azərbaycanın, eləcə də müvafiq qanunvericiliyə uyğun olaraq xarici ölkələrin dini ali və orta ixtisas təhsil müəssisələrindən məzun olmuş şəxslər müsahibədə iştirak etmək üçün 24 iyunadək sənədlərini Dövlət Komitəsinə təqdim ediblər.

Şöbə müdiri onu da qeyd edib ki, Milli Məclis tərəfindən Qanunda müvafiq dəyişikliklərin edilməsi ilə bağlı müzakirələr başlayan kimi əksəriyyəti dini təhsillə əlaqədar olan bir sıra neqativ xəbərlər yayılıb. Müəyyən olub ki, bəzi "işbazlar" vəziyyətdən istifadə edərək din təhsili olmayan din xadimlərini, habelə din xadimi



olmaq istəyən belə şəxsləri diplomla "təmin etməyə" çalışıblar. Dövlət Komitəsinə daxil olan məlumatlara görə, "işbazlar" artıq bəzi din xadimlərini "tələyə" salmağa müyəssər olub, onları köhnə tarixlə, vaxtilə ölkəmizdə fəaliyyət göstərmiş mədrəsələrin diplomları ilə "təmin" ediblər. Halbuki, həmin din xadimlərinin bəziləri müxtəlif vaxtlarda Dövlət Komitəsinə təqdim etdikləri sənədlərdə heç bir dini təhsil müəssisəsini bitirmədiklərini, dini biliklərə ruhanilər vasitəsilə yiyələndiklərini bildiriblər.

C.Əlifzadə din xadimlərini, həmçinin din xadimi olmaq istəyənləri gələcəkdə də diqqətli olmağa, belə şəxslərin qurbanına çevrilməməyə çağırıb. Bildirib ki, müsahibə və attestasiyada iştirak etmək üçün sənədlər, xüsusilə də diplomlar ciddi şəkildə yoxlanılacaq, Dövlət Komitəsi tərəfindən saxta olduğu müəyyən edilən diplomlar və onları verən şəxslər barədə hüquq-mühafizə orqanlarına müraciət ediləcəkdir.

# MİSİR İCTİMAİYYƏTİ ERMƏNİ İŞĞALININ TƏZAHÜRLƏRİNİN ARADAN QALDIRILMASI İSTİQAMƏTİNDƏ APARILAN İŞLƏR BARƏDƏ MƏLUMATLANDIRILIB

أذربيجان.. أيقونة التسامح تعيد البريق للمساجد المنتهكة قدسيتها بالأراضي المحررة في كاراباخ | صور

بيئة متعددة الثقافات في أذربيجان.. ومساعي حثيثة لإزالة مظاهر الاحتلال الأرميني



Misirin "Əl-Nil Nyuz" elektron xəbər portalında "Azərbaycan... Tolerantlıq simvolu işğaldan azad edilmiş Qarabağ torpaqlarında müqəddəsliyi ləkələnən məscidlərə parlaqlıq qaytarır" başlıqlı məqalə dərc olunub.

Məqalədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Bəhruz Orucov tolerantlıq sahəsində böyük təcrübəyə sahib olan Azərbaycanın Şərq ilə Qərbin kəsişdiyi coğrafiyada əhəmiyyətli rola malik olması, multikulturalizmin xalqımızın tarixboyu formalaşan milli keyfiyyəti, bütün dövrlərdə cəmiyyətin yaşam tərzi, xalqımızın sosial tələbi olması barədə geniş məlumat verib. Vurğulanıb ki, Azərbaycan multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, o cümlədən İslam dəyərlərinin dünyada təbliğinə və inkişafına böyük töhfələr verir.

Tarixən Azərbaycanda etnik və dini icmalar arasında möhkəm dözümlülük və dostluq əlaqələri mövcud olub. Milli, irqi və dini zəmində heç bir ayrı-seçkilik baş verməyib. Məscidlərdə məzhəbindən asılı olmayaraq, ölkə müsəlmanlarının bir araya gələrək eyni vaxtda ibadət etməsi tolerantlığımızın bariz nümunələrindəndir.

Məqalədə 1918-1920-ci illərdə dünyəvilik prinsipini qəbul edərək, bütün etnik və dini azlıqlara azadlıq vermiş Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi müasir Azərbaycan Respublikasının dünyəvi dövlətçilik ənənəsi üzərində bərqərar olmasından söz açılıb. Bildirilib ki, dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın dini-mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, din və vicdan azadlığının təmin olunması, dövlət-din münasibətlərini tənzimləyən qanunvericiliyin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, dini abidələrin, məscidlərin, ibadət evlərinin təmir və bərpa olunması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Eyni zamanda statistik rəqəmlər göstərilməklə Ermənistanın 30 ilə yaxın müddət ərzində vaxtilə işğal altında saxladığı Azərbaycan ərazilərində törətdiyi çoxsaylı vandalizm aktları, abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqların dağıdılmasına, təhqir edilməsinə diqqət çəkilib.

B.Orucov məqaləsində bildirib ki, 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusunun 30 il düşmən tapdağı altında qalmış əraziləri azad etməsi ilə həmin torpaqlarda bərpa-quruculuq işlərinə start verilib. Tarixi, mədəni-dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti ilə tanınan Heydər Əliyev Fondu Qarabağ torpağında dini abidələrimizin, ibadət evlərinin bərpasını uğurla həyata keçirir.

Həmçinin məqalədə Ermənistan tərəfindən dağıntıya məruz qoyulmuş bir sıra dini məbədlərlə yanaşı, azad edilmiş yerlərdə yenidən qurulan ibadət yerlərinin də fotoşəkilləri oxucuların diqqətinə təqdim edilib.

# "DÖVLƏT VƏ DİN" JURNALININ YENİ SAYI ÇAPDAN ÇIXIB




Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) nəşri olan "Dövlət və Din" ictimai fikir toplusunun 2022-ci ildə birinci sayı işıq üzü görüb.

Toplu ənənəvi "Rəsmi guşə" bölməsi ilə açılır. Bu rubrikada Prezident İlham Əliyevin Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirakı və orada yaradılan şəraitlə tanışlığı barədə ətraflı məlumat verilir.

İctimai fikir toplusunun ikinci rubrikası olan "Cəmiyyət və Din" millət vəkili Ceyhun Məmmədovun "Qədim dövrdə Azərbaycandakı qəbilə-tayfa münasibətlərində din amilinin rolu" adlı yazısı ilə başlayır. Bu bölmədə, həmçinin "Multikulturalizm və dini müxtəliflik", "Fərdlərdə informasiya mədəniyyətinin formalaşmasının zəruriliyi Quran və hədis müstəvisində", eləcə də "Kitabi-Əqdəs" Bəhai dini doktrinasının əsası kimi" məqalələr yer alıb.

Toplu xarici dildə məqalələrin çapı ənənəsini davam etdirir. Belə ki, bu sayda Ariz Gözəlovun "Müasir insanın dünyagörüşünün formalaşması", habelə Vaxit Akaev Xumidoviç və Aslambek Akaev Vaxidoviçin həmmüəllif olduqları "Çeçenistan Respublikasında İslam: tarixi-mədəni və müasir dini-siyasi aspektləri adlı" məqalələri rus dilində dərc edilib.

Toplunun daimi və maraqlı bölmələrindən biri də "Şəxsiyyətlər"dir. Jurnalın bu bölməsində oxucular Rüstəm Hacıyevin "Eynülqüzat Miyanəci fəlsəfəsində transsendent həqiqətlərinin ifadəolunmazlığı probleminin həlli", Rəhim Həsənovun "Əl-Kindinin fəlsəfi təlimi" və Faiq Ələkbərlinin "Abbas Səhhətin sosial-siyasi və fəlsəfi-əxlaqi görüşləri" məqalələri ilə tanış ola biləcəklər.

Ənənəvi "Tarixə pəncərə" rubrikasında verilmiş məqalələrdə Gəncə şəhərində tarixi-etnoqrafik mənbələrin, eləcə də birgəyaşayış mədəniyyəti ənənələrinin formalaşması və qorunub saxlanmasının əhəmiyyətindən, həmçinin qədim Azərbaycan torpağı olan İrəvan quberniyasının ərazisi, inzibati-ərazi bölgüsü və idarəçilik sistemindən bəhs olunur.

"Araşdırma" bölməsində isə "Şəmkirin erkən İslam dövrü şirli keramikasında astral naxışlar", "II Seyidlər yaşayış yerində arxeoloji tədqiqatlar" və s. məqalələr dərc olunub.

Qeyd edək ki, 2021-ci ildə Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu yeni tələblərə uyğun olaraq DQİDK-nın rəsmi mətbu orqanı olan "Dövlət və Din" elmi jurnalı beynəlxalq xülasələndirmə və sitatgətirmə indeksi sistemlərindən "Directory of Research Journals İndexing" (DRJİ) və Rusiya Elmi Sitatgətirmə İndeksinə (RİNÜ - library.ru) daxil edilib.

# SƏUDİYYƏ ƏRƏBİSTANINDA 1419 İLLİK İSLAM YAZISI TAPILIB

Səudiyyə Ərəbistanı Məkkədə yeni arxeoloji kəşf barədə məlumat yayıb. SPA-nın xəbərinə görə, tapılan yazı 1419 yaşındadır.

Səudiyyə Ərəbistanı İrs Təşkilatı Məkkədəki "Olaya Palas" arxeoloji qazıntılar sahəsində qədim əşyalarla maraqlanan bir qrup şəxs tərəfindən hicri 24-cü ilə aid bir kitabənin aşkar edildiyini təsdiqləyib.

Məkkə yaxınlığındakı Qəsr Aliyə ərazisində tapılan kitabə son dövrlərin ən mühüm arxeoloji tapıntılarından biri hesab olunur və İslam tarixinin başlanğıcındakı mühüm hadisələrdən birini sənədləşdirir.

Yazıda nöqtə və diakritik işarələr olmadan ibtidai formada yazılmış ərəb hərfləri öz əksini tapıb. İslam yazılı kitabələri üzrə ekspert Məhəmməd əl-Məqdavi ilkin oxunuşda iştirak edib və onlar yazının qismən oxunuşunu sosial mediaya yükləyiblər.





Kitabənin birinci sətirində deyilir: "Mən Züheyr Allaha iman gətirdim və Amr ibn Əffanın zamanını iyirmi dördüncü ildə yazdım". Belə təxmin olunur ki, əl-Ula əyalətindən olan Züheyr xəlifə Ömər ibn əl-Xəttabın ölüm vaxtını sənədləşdirib.

İrs Təşkilatı kitabənin tədqiqatının davam etdiyini bildirib. Belə ki, bu kitabə hicri 23-cü il tarixli Yənbu ən-Nəhlədəki Sələmə kitabəsindən və əl-Uladakı Züheyr kitabəsindən (hicri 24-cü il) sonra İslam yazılarının əks olunduğu üçüncü ən qədim tarixə malik qayaüstü sənəddir.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ JURNALİSTLƏR ARASINDA YAZI MÜSABİQƏSİ ELAN EDİR

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Milli Mətbuat Günü münasibəti ilə jurnalistlər arasında "Vicdan azadlığı və media" mövzusunda yazı müsabiqəsi elan edir.

**I. Mükafatlandırma**
I yer – 1 nəfər - 600 manat
II yer - 2 nəfər - 500 manat
III yer - 3 nəfər - 300 manat
Həvəsləndirici mükafat - 6 nəfər - 150 manat

**II. Müsabiqə şərtləri**
Müsabiqəyə təqdim olunmuş yazılarda üstünlük veriləcək:
- Mövzunu dolğun əhatə etmə səviyyəsi;
- Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
- İfadə vasitələrinin zənginliyi;
- Maarifləndiricilik xüsusiyyəti;
- Oxucu üçün informasiyalılıq dərəcəsi;
- Müsabiqəyə 07 iyun 2022-ci il tarixindən 07 iyul 2022-ci il tarixinədək qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında yayımlanan yazılar buraxılacaq;
- Müsabiqə üçün dil məhdudiyyəti nəzərdə tutulmur;
- Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Milli Mətbuat Günü münasibəti ilə jurnalistlər arasında "Vicdan azadlığı və media" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur" qeydi olmalıdır.

**Qeyd:**
Müsabiqə üçün təqdim ediləcək material müəllifin çalışdığı KİV-də yayımlanmaya da bilər.

**III. Yazıların təqdim edilməsi**
Müsabiqə üçün yazıların təqdimatı 2 yolla aparılır – şəxsən və elektron qaydada:
1. Yazılar şəxsən təqdim edilərkən təqdimat zərfində yer almalıdır:
- Yazı təqdim edən şəxsin konkret kütləvi informasiya vasitəsində işlədiyini təsdiqləyən sənədin surəti (çalışdığı media qurumu varsa);
- Yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- Yazı təqdim edən şəxsin əlaqə vasitələri – ev və iş telefonu, mobil telefonu;
- Müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi;
- Materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi (nüsxələrdə müəllifin adı göstərilməməlidir);
- Diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmaqla);
- Yazı elektron media resursunda yayımlanıbsa, diskdə yazının linki göstərilməlidir.

2. Yazılar elektron qaydada təqdim edilərkən aşağıdakılar nəzərə alınmalıdır:
- Müsabiqəyə yazılar press@scwra.gov.az elektron ünvanına göndərilməlidir.
- Təqdimatda yer almalıdır:
- Müsabiqə yazısı ("Word" faylında, imzasız);
- Müsabiqə yazısının yayımlandığı qəzetin, jurnalın nüsxəsi (PDF, JPG, yaxud "Word" faylında);
- Yazı elektron media resursunda yayımlanıbsa, bunu təsdiqləyən "link";
- Yazı müəllifinin şəxsiyyət vəsiqəsi, iş vəsiqəsi və ya əmək kitabçasından müəllifin KİV-də çalışdığını təsdiqləyən çıxarış (PDF, JPG, yaxud "Word" faylında);
- Yazı müəllifinin əlaqə vasitələri (PDF, JPG, yaxud "Word" faylında) əlavə olunmalıdır.

Müsabiqə üçün yazılar həm şəxsən, həm də elektron poçt vasitəsilə 07 iyun 2022-ci il tarixdən 07 iyul 2022-ci il tarixinədək, həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Əhməd Cavad küçəsi 16 ünvanında qəbul ediləcək.

**Qeyd:** Təqdimat prosesində müsabiqə şərtlərinin hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə:**
(012) 437 31 15

# KİM ÜZR İSTƏMƏLİDİR?

***(IV hissə)***

**Bəs görəsən azərbaycanlılara qarşı etdikləri vəhşiliklərə görə Z.Balayan, S.Kaputikyan, S.Sarqsyan, R.Köçəryan və s. kimi allahsız və vəhşiləşmiş ermənilər Azərbaycan xalqından nə vaxt üzr istəyəcək? Allahın ədalətinə sığınaraq deyə bilərik ki, onlar gec-tez, istər bu dünyada, istərsə də axirətdə layiqli cəzalarını alacaqlar. Çünki Allah böyükdür, ədalətlidir, hər şeyi görəndir, hər bir şəxsə onun hərəkətlərinə uyğun yaşadığımız və axirət dünyasında müvafiq pay verir!** Bu ulu həqiqəti başa düşməyən ermənilər havadarlarına ümid bəsləyir, günümüzün reallığından uzaqlaşaraq, revanşist hisslərə qapılırlar. Belə ki, Ermənistandakı bəzi siyasi qüvvələr sülhə doğru gedən prosesi pozmaq üçün İrəvanda mitinqlər keçirir, eyni zamanda prosesə kənar siyasi qüvvələri cəlb etməyə cəhd göstərirlər. Hamıya məlumdur ki, yaradılan süni problemlərin təşəbbüskarları və hərəkətverici qüvvəsi Qarabağ ermənilərinin "liderləri"dir. Bu dırnaqarası liderlər Azərbaycan ordusuna qalib gəlməyin qeyri-mümkün olduğunu anlayaraq məqsədlərinə çatmaq üçün başqa dövlətləri münaqişə ortağı kimi məsələyə cəlb etməyi planlaşdırırlar. 25 mart 2021-ci il tarixində Xankəndidə rus dili haqqında və onun "ikinci dövlət dili" statusu haqqında "qanun" qüvvəyə minib. Erməni separatçıları "müstəqilliyin tanınmasının və Ermənistana birləşməyin qeyri-real göründüyünü" bilir və buna görə "Rusiya ilə vertikal münasibətlər" ehtimalını mümkün hesab edirlər. Son zamanlar Qarabağda "parlament" 2020-ci ilə qədər olduğu kimi, separatçıların müstəqilliyinə yenidən zəmanət vermək və Qarabağı Azərbaycanın tərkibində tanımaqdan imtina etmək çağırışı ilə müraciət edib. Lakin Kreml ermənilərin çağırışlarına reaksiya vermir. V.Putinin Qarabağın Azərbaycana məxsus olması haqqında məşhur sözlərindən sonra (2020) Moskva bu mövqeyini dəyişməyib. Rusiya Beynəlxalq Məsələlər Şurasının baş direktoru Andrey Kortunov bildirib ki, "Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır, elə Ermənistan özü də". İrəvanın "Lragir" saytı bu müsahibəni ermənilər üçün "soyuq duş" adlandırıb.

Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da Qarabağın statusu məsələsinə toxunarkən deyib ki, rəsmi İrəvan problemin həllini Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinin, eləcə də hüquqlarının təmin edilməsində görür. "Status buna uyğun müəyyən edilməlidir. Təhlükəsizlik zəmanətləri olacaqmı? Təminatların institusional baxımdan nə olacağını hələ bilmirik. Danışıqlar zamanı bunları müzakirə edəcəyik, bir qərara gəlsək və görsək ki, soydaşlarımızın təhlükəsizliyi mütləq təmin olunacaq, biz bununla razılaşacağıq", - deyə Qriqoryan bildirib.

Bu məqamda müharibədən əvvəl, münaqişənin sülh yolu ilə həlli prosesində cənab Prezidentin məsələyə yanaşmasını və ermənilərə etdiyi təklifləri yada salmaq istərdim. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən Qarabağda yaşayan ermənilərə Azərbaycan dövləti daxilində təhlükəsiz və sülh şəraitində yaşamaq, Azərbaycan vətəndaşları kimi hüquqlarının təmin edilməsi dəfələrlə təklif olunub. Lakin avantürist erməni liderləri xalqını düşünməyərək, xarici havadarlarının və öz xülyalarının arxasında gizlənməyi üstün tutaraq bundan imtina edirdilər.

**Tam ümidsizliyə qapılmayaq. Deyəsən, ermənilər arasında "İncil"i oxumağa başlayanlar da var.**

Yazımın ilk hissəsində bir qrup erməninin Azərbaycana qarşı vuruşmaqda səhv etdiklərini etiraf etməsini və üzr istəməsini xatırlatmışdım. Yazımın sonunda da son vaxtlar rast gəldiyim digər tək-tək müsbət erməni hərəkətləri və dünyagörüşləri haqqında məlumat verməyi özümə borc bildim. Çünki biz azərbaycanlılar ermənilərdən qonaqpərvərlikdə və qonşuluq münasibətlərində yaxşı mənada həmişə fərqlənmişik və daha çox realist dünyagörüşlüyük. Xalq olaraq müqəddəs kitablarda tərənnüm edilən sülhü daim həyatımıza tətbiq etmişik və sülhün tərəfdarı olmuşuq. Biz ermənilərlə qonşuyuq. Odur ki, onlarla müqəddəs kitablarda deyildiyi kimi Allaha xoş gedən sülh şəraitində yaşamalıyıq. Gec də olsa, ermənilər arasında sülhün dəyərini "dəmir yumruq"dan sonra anlamağa başlayanlar kifayət qədərdir. Belə ki, son günlər Nikol Paşinyan Qarabağ separatçılarının başçısının sülh gündəliyini qəbul etməsini yüksək qiymətləndirərək deyib ki, **"Sülh gündəliyi müharibə bəlasını və müharibədən sonra yaranan çətinlikləri aradan qaldırmaq, insanların təhlükəsizliyini, hüquqlarını və gələcəyini təmin etmək üçün gündəmdir".**

Arzu edərdik ki, N.Paşinyanın bu sözünü azərbaycanlılarla müharibənin ən əsas ideoloqlarından və tərəfdarlarından biri Z.Balayan və onun kimi allahsızlar oxusunlar. Sonra özlərinə sual versinlər: Sülh və ya müharibə yaxşıdır? Onlarda, az da olsa, insanlıq qalıbsa, sülhü seçməlidirlər. Lakin ermənilərin son vaxtlar ortaya qoyduqları ravanşist düşüncələri göstərir ki, yəqin, bu allahsızlar əsassız torpaq iddiaları ilə yeni Azərbaycan-Ermənistan müharibəsini istəyəcəklər. Nəticədə yeni insan itkiləri, dağıntılar, qaçqınlar olacaq.

Mənə elə gəlir ki, son vaxtlar vəziyyəti real qiymətləndirən, Allahın haqq-ədalətinin kimin tərəfində olduğunu bilən ermənilər də var. Onlar azərbaycanlılarla müharibəsiz yaşamaq istəyirlər. Qondarma rejimin "Milli Assambleyasının sədri" Artur Tovmasyan bildirib ki, **"kimlərsə burada Azərbaycan sevgisi aşılayır və bildirirlər ki, Azərbaycanın tələblərini qəbul etsək, yaxşı yaşayacaqsınız".** Bəli, şükür ki, az da olsa, bu cür düşünən ermənilər də var. Z.Balayan və onun kimi allahsızların millətçi, normal insanlıq əleyhinə yönəlmiş fəaliyyətləri nəticəsində pis yaşamağa məhkum olunmuş sadə ermənilərdən **kim üzr istəməlidir?**

Günün reallığı odur ki, Azərbaycan verdiyi vədləri sözdə deyil, əməldə də göstərir. Məsələn, bu ilin mart ayının sonlarında ermənilərin yaşadığı, Rusiya sülhməramlılarının nəzarətində olan Xankəndinin qazla təminatında problem yaranmışdı. Separatçı ermənilər iddia edirdi ki, guya qaz kəmərinin təmirinə Azərbaycan imkan vermir. Bütün bu sayıqlamalara baxmayaraq, Azərbaycan dövlətinin hümanistliyi nəticəsində "Azəriqaz" tərəfindən qaz kəməri təmir olundu və Xankəndiyə qaz verildi. Aydındır ki, bizi günahkar kimi qələmə vermək Azərbaycanla Ermənistan arasında bağlana biləcək sülh müqaviləsinə qarşı təxribatın parçası idi. Lakin bu təxribat baş tutmadı və nəticədə bir qrup ermənənin bizə münasibəti müsbət istiqamətdə dəyişməyə başladı. Hazırda bəzi Qarabağ erməniləri separatçı rejimin təzyiqinə baxmayaraq, problemlərinin həlli üçün çıxış yolu kimi birbaşa Azərbaycana müraciət etməyi görürlər.

Erməni başbilənlərinin reallığı düzgün qiymətləndirməyə başlamasını göstərən maraqlı faktlardan biri də odur ki, son Brüssel görüşündən sonra Paşinyan ilk dəfədir adekvat görünür. Belə ki, Qarabağ barəsində səsləndirdiyi fikirlər qismən reallıqla uzlaşır.

davamı səh. 11

# KİM ÜZR İSTƏMƏLİDİR?

*(IV hissə)*

əvvəli səh. 10

Paşinyanın çıxışında bir məqama diqqət yetirsək, görərik ki, Baş nazir başda olmaqla, onun komandası Qarabağ münaqişəsinin həlli prinsiplərinin uzadılmasında birbaşa olaraq 1998-2018-ci illərdə hakimiyyətdə olan "Qarabağ klanı"nı – Sarqsyan-Köçəryan cütlüyünü günahkar görür. Hətta yaxınlarda hakim "Vətəndaş müqaviləsi" partiyasının üzvü, deputat Vigen Xaçatryan artıq acı reallıqları dərk edərək "prezident Levon Ter-Petrosyanın dövründə ortaya atılan "Qarabağın Azərbaycan tərkibində gələcəyi yoxdur" ideyasının bu gün yanlış olduğunu görürük" ifadəsini işlədib. Görünür, ermənilər, gec də olsa, minlərlə günahsız insanın faciəsinə səbəb olan səhvlərini başa düşməyə başlayıblar. Sual olunur, **bu faciələrə görə kim üzr istəməlidir?**

**Ermənilərin ağıllanmasını göstərən digər xəbərlər də var.** Belə ki, "Qarabağ klanı"nı getdikcə dərinləşən iflasından nəticə çıxarmaq əvəzinə, Ermənistanda daxili vəziyyət gərginləşir, daha çox hərbi canilərin toplaşdığı revanşistlər Nikol Paşinyana qarşı mümkün təzyiq vasitələrindən maksimum istifadə edir və heç bir konsepsiya olmadan Paşinyan hakimiyyətini satqınlıqda, xəyanətdə ittiham edirlər. Ancaq faktiki olaraq Ermənistanın "Vətən" partiyasının lideri Artur Vanetsyanın etirazlar aksiyası real sosial bazaya əsaslanmadığı üçün iflasa uğradı. **Ermənistanın revanşist qüvvələri son qərarı ilə faktiki olaraq Paşinyan hakimiyyəti qarşısında ağ bayraq qaldırdı. Belə ki, "Hayreniq" ("Vətən") partiyası Ermənistan parlamentindəki Ermənistan Respublikaçılar Partiyası ilə birgə yaratdığı "Şərəfim var" blokunda fəaliyyətini dayandırmaq haqda bəyanat yayıb.** "Yeni Sabah" bildirir ki, "Hayreniq" partiyasının rəhbəri, dövlət təhlükəsizlik xidmətinin keçmiş rəhbəri Vanetisyanın yaydığı bəyanat küçə mübarizəsinin artıq effekt vermədiyinin etirafı hesab oluna bilər. Erməni cəmiyyəti isə Vanetsyanın arxasında dayanmış keçmiş prezidentlər R.Köçəryan, S.Sarqsyan və ümumən rüşvətxor "Qarabağ erməniləri klanı"ndan bezib. Bu səbəbdən də erməni cəmiyyətində hərbi canilərə və onların üzv olduğu siyasi partiyalara dəstək yoxdur. Gec də olsa, ermənilər haqq yoluna qayıdırlar. Bunu təsdiq edən digər faktlar da var. Son parlament seçkilərində Paşinyanın seçilməsi sadə ermənilərin yenidən müharibənin olmasını istəmədiyini göstərdi. Erməni əhalisi keçmiş klan hakimiyyətlərinə – Sarqsyan və Köçəryana yenidən "yaşıl işıq" yandırmadı. Hakim "Mülki Müqavilə" partiyasından Ermənistan prezidenti seçilən Vaaqn Xaçatryan deyir ki, "Ermənistan vətəndaşları anlamalıdırlar ki, sülh həyat və inkişaf üçün yeganə variantdır. Hətta biz çox güclü olsaq da, sülhə can atmalıyıq, başqaları ilə münasibətlərdə bunu əldə rəhbər tutmalıyıq. Ermənistan-Türkiyə arasında proses iqtisadi və siyasi münasibətlərə gətirib çıxaracaq". Ermənistanın Baş naziri Nikol Paşinyanın "Azərbaycanla Ermənistan arasında tezliklə sülh sazişi bağlanmalıdır" fikrini də müsbət qiymətləndiririk. O bildirir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistanın əvvəlki dövlət rəhbərləri də belə fikirləşsəydi, nə olardı? Cavab: nə günahsız qanlar tökülərdi, nə evlər dağılardı, nə də insanlar qaçqın düşərdilər. Ermənilərin də öz başladıqları müharibədən xeyir görmədiklərini göstərən Ermənistanın Baş naziri N.Paşinyan müharibədə ölən ermənilərin sayını açıqlayıb. "Bu günə qədər müharibə zamanı həlak olanların sayı 3825 nəfər təşkil edib. Bundan əlavə, hələ də axtarışlar davam edir". Allahsız Z.Balayan, sənin kimi faşist və allahsız ermənilərin insanlıq əleyhinə yönəlmiş millətçi ideologiyasının qurbanı olmuşlardan **kim üzr istəməlidir?**

Erməni əsilli rusiyalı rejissor Karen Şahnazarov Rusiya mətbuatına müsahibəsində bildirib ki, mən dəfələrlə demişəm, nəinki sülh sazişinin, həm də iki ölkə arasında bütün əlaqələrin – iqtisadi, mədəni və ümumiyyətlə, dostluq əlaqələrinin qurulmasının tərəfdarıyam: "Ermənistan və Azərbaycan iki kiçik respublikadır, əlbəttə, onlara mehriban qonşuluq münasibətləri gərəkdir". Rejissorun sözlərinə görə, Ermənistan tərəfi etiraf etməlidir ki, Qarabağ Azərbaycanın bir hissəsidir: "Bunu dərk etməsək, heç nə alınmayacaq. Vəziyyətin incəliyi ondan ibarətdir ki, Ermənistan faktiki olaraq heç vaxt rəsmi səviyyədə bu faktı inkar etməyib. Paşinyan bu yaxınlarda hətta az qala açıq şəkildə bildirib ki, Qarabağ heç zaman ermənilərin olmayıb. Rusiya da inkar etmir ki, Qarabağ Azərbaycanın bir hissəsidir. De-fakto nə varsa, de-yure təsdiq edilməlidir. Ermənilərə bununla barışmaq lazımdır". Z.Balayan və onun kimi fikirləşən ermənilər, yəqin ki, erməni xalqını sizdən daha çox istəyən Karen Şahnazarov kimi normal dünyagörüşlü ermənilər var. Onlar Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin, iqtisadi, mədəni və ümumiyyətlə, dostluq əlaqələrinin qurulmasının tərəfdarıdırlar. Sizin kimilər isə müharibənin, dağıntıların, ölümün və s. bu kimi allahsızlıqların və vəhşiliklərin tərəfdarısınız.

**Allaha şükür ki, tək-tük də olsa, Karen Şahnazarov kimi fikirləşən ermənilər var. Bəlkə, Karen Şahnazarov kimilər öz hərəkətləri ilə Allah və onun yaratdığı bütün insanları sevməyin mütləq olduğunu dərk edərək erməniləri insanlığa ləkə olmaq etiketindən qurtarmağa cəhd edirlər? Bunun mümkün olub-olmayacağını zaman göstərəcək.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Şuşamızda keçirilən V Qurultayında çıxışında dediyi kimi, artıq bir sıra beynəlxalq təşkilatlar da, məsələn, sədrlik etdiyimiz Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyirlər və postmünaqişə reallıqlarını qəbul edirlər: "İndi qonşu ölkələr 3+3 formatda beş ölkə hazırda əməkdaşlıq formatı yaradıbdır. Qonşu ölkələrin hamısı postmünaqişə reallıqlarını qəbul etmişlər. Böyük dövlətlər – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Amerika Prezidenti, Böyük Britaniyanın Baş naziri mənə göndərdikləri məktublarda bu, açıq-aydın göstərilir. Yəni, biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik. Hazırda iki ölkənin xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. **Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq".**



İnsan qanına susayan, günahsız insanların öldürülməsinin bilavasitə iştirakçıları və ideoloqları olan allahsız və vəhşiləşmiş Z.Balayan, S.Kaputikyan, R.Köçəryan, S.Sarqsyan, B.Saakyan, A.Qukasyan, A.Arutunyan, S.Ohanesyan, bütün ermənilərin katolikosu II Qaregin və s. bunlar kimi erməni millətçilərinə sual verirəm: öldürülən, itkin düşən, yaralanan, evləri dağıdılan və qaçqın düşən insanlardan, onların yaxınlarından, xüsusi ilə də öldürülən, şikəst olan, bir və ya hər iki valideyini öldürülən uşaqlardan **kim üzr istəməlidir?**

**Bu sadalanan faktları, bəlkə də, oxuya biləcək ermənilərə yazımın əvvəlində İncildən təqdim etdiyim kəlamlarla müraciət edirəm: "Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq" (İncil, MATTA 5:9). Bugünkü Ermənistan hakimiyyəti və onlara dəstək verənlər əgər Allaha inanan həqiqi xristiandırlarsa, müqəddəs kitablarının kəlamlarına əməl etməlidirlər. Necə ki, azərbaycanlılar müqəddəs kitabları olan Qurani-Kərimin kəlamlarına əməl edərək ermənilər də daxil olmaqla, bütün Allah bəndələri ilə sülh şəraitində yaşamaq istəyirlər.**

**Elçin Bilaloğlu,**
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Milli Onkologiya Mərkəzinin həkimi

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini iyun ayı ərzində də davam etdirmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:



**1 iyun** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Nizami Rayon İcra Hakimiyyəti (RİH) və Nizami Rayon Prokurorluğunun birgə təşkilatçılığı ilə rayonun 312 saylı tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Cəlilabad Regional Mərkəzi və Lənkəran Peşə Liseyinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "İnsan hüquq və azadlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda;

**2 iyun** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Şabran RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Quba Regional Mərkəzi və Şabran rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində Şabran şəhəri Heydər Əliyev Mərkəzində "İnsan hüquqları: dini etiqad azadlığı" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Turizm Kollecinin birgə təşkilatçılığı ilə kollecdə "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, İmişli rayon GİI və İmişli rayon Mərkəzi Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "İnsan Hüquqları: dini etiqad azadlığı" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax ŞİH və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda;

**3 iyun** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Xızı RİH, rayon Polis Şöbəsi və rayon GİI-nin birgə təşkilatçılığı ilə Xızı rayon Şorabad qəsəbə tam orta məktəbində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Səbail RİH-in birgə təşkilatçılığı ilə Məmməd Rahim adına 7 nömrəli tam orta məktəbdə "Gənc və yeniyetmələri dini radikalizm və ekstremizmin təsirlərindən qoruyaq" mövzusunda;

**7 iyun** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz rayon GİI və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi, mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi qəhrəmanı Şixamir Qaflanov adına Humanitar Fənnlər Gimnaziyasında "İnsan Hüquqları Aylığı" çərçivəsində "İnsan hüquq və azadlığına hörmət hüquqi, mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər Nizami rayon bələdiyyəsində "Seçim həmişə var: narkotik vasitələrə "Yox" deməyi bacar" mövzusunda;

**8 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə "İnsan hüquq və azadlığına hörmət hüquqi, mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nən Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Akademik Zərifə Əliyeva adına şəhər 3 saylı tam orta məktəbində "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda;

**9 iyun** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Dövlət Təhlükəsizlik Xidmətinin Qusar rayon şöbəsi, RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzi, Qusar rayon GİI və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qusar rayonu üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "İnsan hüquq və azadlıqlarına hörmət hüquqi, mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Mərkəzi Cümə məscidinin nəzdində fəaliyyət göstərən "Şəki mərkəzi qız Quran kursu"nun birgə təşkilatçılığı ilə Şəki şəhərində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyimizə və mənəvi dəyərlərimizə olan təhlükə kimi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax Peşə Liseyində Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı çərçivəsində "Məişət zorakılığının qarşısının alınması, həmçinin onunla mübarizə" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və QMİ-nin Şəki-Oğuz bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə Mərkəzi Cümə məscidində "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kəpəz rayon bələdiyyəsində "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Gədəbəy RİH, rayon Polis Şöbəsi və Qazax-Tovuz Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz və dini maarifləndirmənin aparılmasında medianın rolu" mövzusunda;



**10 iyun** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon E.İsgəndərov adına Əhmədbəyli kənd tam orta məktəbində "Narkomaniya, erkən nikah, dini radikalizmə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Bərdə rayon GİI və Gənclərin İnkişaf və Karyera Mərkəzinin yerli nümayəndəliyinin birgə təşkilatçılığı ilə Bərdə rayon Heydər Əliyev Mərkəzində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Günü ilə əlaqədar; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Günü ilə əlaqədar "Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafında rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Şuşa İli" ilə bağlı Tədbirlər Planına əsasən "Şuşa mənəviyyat incisi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Qaradağlı kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

**13 iyun** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar RİH, rayon GİI və rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Biləsuvar şəhər 4 saylı tam orta məktəbdə "Narkomaniya və onun yaratdığı fəsadlar" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi,



Gənclərin İnkişaf və Karyera Mərkəzinin Yevlax nümayəndəliyi, rayon Polis Şöbəsi və YAP Rayon Təşkilatının birgə təşkilatçılığı ilə "Narkomaniya: Səbəbləri və ona qarşı mübarizə yolları; mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, YAP Hacıqabul rayon təşkilatı və Hacıqabul RİH-in birgə təşkilatçılığı ilə "Milli qurtuluşdan tarixi zəfərə" mövzusunda;

**14 iyun** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Ombudsmanın Cəlilabad Regional Mərkəzi və Rəhim Tağıyev adına Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində "Heydər Əliyev və Azərbaycanda insan hüquqlarının inkişafı" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Yuxarı Ağasıbəyli kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

**17 iyun** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində Qax rayonu Heydər Əliyev Mərkəzində "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Goranboy rayonu "N" saylı hərbi hissədə milli-mənəvi dəyərlərimizin təbliği və vətənpərvərlik hissinin aşılanması məqsədilə; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Xocavənd RİH-in birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsi: azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə Tərtər rayon Suqovuşan qəsəbəsində "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda;

**21 iyun** – DQİDK-nın 21 illiyi münasibətilə Göyçay rayonunda tədbir;

**22 iyun** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Tərtər RİH, rayon Polis Şöbəsi və rayon GİI-nin birgə təşkilatçılığı ilə Tərtər rayon Gənclər Mərkəzində 26 iyun – Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq mübarizə Günü ilə əlaqədar; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**23 iyun** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən rayon GİI və rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə qarşı mübarizə mənəviyyatımızın xilasıdır" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı rayon Heydər Əliyev Mərkəzi və rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Şuşa - tariximiz, mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax şəhər Gənclər evi sosial xidmət müəssisəsi, Aran Regional Təhsil İdarəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yevlax rayon şöbəsinin birgə təşkilatçılığı ilə "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH, rayon Polis Şöbəsi, rayon GİI, "Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Narkotikə yox deyək" mövzusunda;

davamı səh. 13

# QISA-QISA



əvvəli səh. 12

DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Mərkəzi Cümə məscidinin nəzdində fəaliyyət göstərən Şəki Mərkəzi Qız Quran kursunun birgə təşkilatçılığı ilə Şəki şəhərində "Milli dövlətçiliyin möhkəmlənməsi: azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda;

**24 iyun** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Oğuz şəhər Cümə məscidində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və hərbi hissənin birgə təşkilatçılığı ilə Ağstafa rayonunda yerləşən hərbi hissədə "Dini ekstremizmə qarşı mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki İslam Kollecinin birgə təşkilatçılığı ilə Şəkidə 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin, ziyalılar və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi yad edilib.

Çıxışlar zamanı vətənpərvərlik ruhu aşılaması və gənclərin formalaşması baxımından mənəvi dəyərlərimizin önəmindən bəhs edilib. Onların dünyagörüşünə, mənəvi inkişafına mənfi təsir göstərən amillərin, dini radikalizm, erkən nikah və narkomaniyanın gənclərimizin gələcəyi üçün real təhlükələrindən danışılıb. Məktəblilərin bəşəri dəyərlərə hörmətlə yanaşmasında, mənəviyyatlı, dünyagörüşlü, vətənpərvər gənclər olaraq yetişməsində ailənin, məktəbin və ictimaiyyətin rolunun danılmaz olduğu vurğulanıb.

Natiqlər mənəvi dəyərlərimizin qorunması və inkişafında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs ediblər. Azərbaycançılıq ideologiyası və onun mahiyyəti haqqında məlumat verərək bildiriblər ki, bu ideologiyanın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün də xalqımız bu ideologiya ətrafında sıx birləşib. Daha sonra milli-mənəvi irsimizin qorunması, təbliği, tədqiqi və onun gələcək nəsillərə ötürülməsi istiqamətində görülən ardıcıl tədbirlərdən danışılıb.

Ümummilli Liderin müstəqil Azərbaycan dövlətinin tarixində qoyduğu silinməz izlərdən geniş söhbət açan natiqlər bildiriblər ki, Azərbaycan adlı müstəqil dövlət bizə və bütün gələcək nəsillərə Ulu Öndərin ən böyük tarixi əmanətidir. Heydər Əliyevin zəngin dövlətçilik irsini yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Prezident İlham Əliyev xalq qarşısında verdiyi vədləri əməli işi ilə doğruldaraq daim insanların sevgisini və etimadını qazanıb.

Tədbirlərdə insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququna diqqət çəkilib. Çıxışlar zamanı insan hüquq və azadlıqları, bu sahədə qəbul edilmiş qanunlar, qərarlar və digər normativ aktlar



haqqında məlumat verilərək, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən layihələr tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Həmçinin vurğulanıb ki, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir və dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Xüsusilə qeyd olunub ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Tədbirlərdə, həmçinin cəmiyyətimizdə erkən nikahların yaratdığı mənəvi, sosial və hüquqi zərərlər haqqında danışılıb. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin daha intensiv aparılmasının vacibliyi, din xadimlərinin məsələyə həssas yanaşmalı olduğu və onların üzərinə müəyyən vəzifələrin düşdüyü nəzərə çatdırılıb.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan tədbirlər qarşılıqlı diskussiya şəklində baş tutub.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# BÖLGƏLƏRDƏ DİN XADİMLƏRİ İLƏ GÖRÜŞLƏR KEÇİRİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələrinin təşkilatçılığı ilə "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"nın şərtləri ilə bağlı din xadimlərinin maarifləndirilməsi məqsədilə iyun ayı ərzində bölgələrdə görüşlər keçirilib.



DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin iştirakı ilə keçirilən görüşlərdə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklər tədbir iştirakçılarının diqqətinə çatdırılıb. İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün elan edilmiş müsahibəyə sənədlərin qəbulu və müsahibə proqramı, tələb olunan müvafiq sənədlər barədə din xadimlərinə geniş məlumat verilərək bildirilib ki, müsahibə zamanı namizədlərin bilik səviyyəsi qiymətləndiriləcək və uğur qazanmış şəxslər müvafiq vakant vəzifələrə təyin ediləcəklər. Həmçinin onlara müsahibə elanının verilməsi ilə bağlı təşkilati məsələlər izah edilib, müsahibə komissiyasının tərkibinin formalaşdırılması, müsahibə komissiyasının reqlamenti və müsahibənin keçirilməsi qaydası iştirakçıların nəzərinə çatdırılıb. Namizədin vəzifəyə uyğunluğunun qiymətləndirilməsi, din xadimlərinin attestasiyasının keçirilməsi və attestasiyanın nəticələrinin rəsmiləşdirilməsi barəsində də izahlar verilib.

Qeyd edək ki, bu qəbildən olan tədbirlər çərçivəsində:

**İyunun 1-də** DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala şəhər Sahib-Əzzaman məscidində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin əhatə etdiyi Lənkəran, Astara və Lerik rayonlarında; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan şəhər Mərkəz Hacı Tağı məscidində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İmamzadə Ziyarətgah kompleksində; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi rayonu Hindarx qəsəbə məscidi dini icmasının təşkilatçılığı ilə; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir rayonunda;

**İyunun 2-də** DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Saatlı rayonunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Binəqədi RİH-in birgə təşkilatçılığı ilə; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin təşəbbüsü və Suraxanı RİH-in təşkilatçılığı ilə Əmircan qəsəbəsi "Murtuza Muxtar" məscidində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonu Lüvəsər kənd məscidində; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Cəlilabad rayonunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və QMİ-nin nümayəndələrinin birgə təşkilatçılığı ilə; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda; Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhərində;

**İyunun 3-də** DQİDK-nın Şirvan, Masallı, Yevlax, Şəki, Ağcabədi, Şamaxı, Tovuz, Ucar bölgələri üzrə şöbələrinin təşkilatçılığı ilə müvafiq olaraq Hacıqabul, Şirvan, Yardımlı, Yevlax, Qəbələ, Oğuz, Ağcabədi, İsmayıllı, Kürdəmir və Şəmkirdə;



**İyunun 6-da** dini ayin icraçısı olmaq istəyən qadın namizədlərlə Sumqayıt şəhər Cümə məscidində;

**İyunun 7-də** DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və QMİ-nin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Sabirabadda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bərdədə; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Astara rayonu Şüvi kəndi "Cümə" məscidində;

**İyunun 9-da** DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Pərioğullar və Avşar kəndlərində; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gədəbəydə;

**İyunun 10-da** DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Beyləqan rayonunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Füzuli rayonu Horadiz şəhər "Əhli-Beyt", Tərtər rayonu "Cümə", "Mahmudlu-2" kənd məscidi dini icmalarında;

o cümlədən Ağdam rayonunun Mahrızlı və Zəngilaşı kənd məscidlərində, Füzuli rayonunun Böyük Bəhmənli, Kərimbəyli və Yağlıvənd, Mahmudlu-2 kənd məscidlərində, eləcə də Zərdab rayonunda görüşlər keçirilib.

Tədbirlərdə din xadimlərinin fikirləri dinlənilib və onları maraqlandıran suallara cavab verilib.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

## *Dövlət qeydiyyatına alınaraq Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmiş dini qurumlar*

**Oğuz rayonu Xaçmaz kəndi "Səməd bəy" məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122C – 962
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Oğuz rayonu, Xaçmaz kəndi, "Səməd bəy" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Cəlal Aydəmir oğlu Lətifov

**Şəki rayonu Qozlubulaq kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122C – 963
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şəki rayonu, Qozlubulaq kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Nuh Qərib oğlu İsayev

**Yardımlı rayonu Yolocaq kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122D – 964
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Yardımlı rayonu, Yolocaq kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Orxan Adinə oğlu Qaraşov

**Sabirabad rayonu Güdəcühür kəndi "Əli Əsgər" məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122C – 965
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Güdəcühür kəndi, "Əli Əsgər" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mirağa Mirmehdi oğlu Əsgərov

**Sabirabad rayonu Əsədli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122C – 966
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu, Əsədli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Adil Xanəhməd oğlu Dəmirov

**Göyçay rayonu Dövranlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122A – 967
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Dövranlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Seymur Sabir oğlu Şıxəliyev

**Masallı rayonu Çaxırlı kəndi "İmam Zaman" məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122C – 968
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Çaxırlı kəndi, "İmam Zaman" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Hüseyn Dilşad oğlu Əhmədli

**Xaçmaz rayonu Mürşüdoba kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122A – 969
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Xaçmaz rayonu, Mürşüdoba kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Xalıq Məhəmməd oğlu Zamanov

**Beyləqan rayonu Türklər qəsəbə məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122A – 970
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Beyləqan rayonu, Türklər qəsəbə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Gülalı Müsəddin oğlu Əflatunov

**Saatlı rayonu Bəylik kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122C – 971
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Bəylik kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Xilqət Rəfayıl oğlu Əsədov

**Beyləqan rayonu Dünyamalılar kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122A – 972
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Beyləqan rayonu, Dünyamalılar kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elmir Ayaz oğlu Kərimov

**Saatlı rayonu Sımadakənd kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 31 may 2022-ci il
Qeydiyyat №-si: 100122C – 973
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu, Sımadakənd kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İlqar Həmzə oğlu Əliyev

**"Saatlı rayonu Gomuşçu kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 29 noyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-865
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Sabbar Cabbar oğlu, Hüseynov Eysulla Əzulla oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Eynullayev Həzrətəli Əli oğlu, Ociyev Ehtibar Lətif oğlu, Nəsirov Kamran Əhməd oğlu, Əmraslanov Bəxtiyar Nərman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Hüseynov Sabbar Cabbar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Allahyarov Balaqardaş Mirzalı oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 07 iyun 2022-ci il

**"Masallı rayonu Qızılağac kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 15 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1-224
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Hadı Mirhüseyn oğlu, Məmmədov İltifat Ağaverdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
İmanov Afət Allahverdi oğlu, Əliyev Eldar Sabir oğlu, Əzizov Davud Yasər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 09 iyun 2022-ci il

**"Masallı rayonu Hacıtəpə kənd kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 02 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4-462
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abuşov Abdulla Sahib oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Zeynalov Qılman Nəriman oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 09 iyun 2022-ci il

**"Masallı rayonu Qabaq Dadva məhəllə məscidi" dini icması**
Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3-102
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Asəf Kazım oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Hüseynov Nadir Kazım oğlu, Hüseynov Fizuli Hüseynalı oğlu, Hüseynov Zaur Asəf oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 09 iyun 2022-ci il

**"Masallı rayonu Təzə Alvadı kəndi "Cümə" məscidi" dini icması**
Qeydiyyat tarixi: 16 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2-298
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Maşallah Əbülfəz oğlu, Novruzov Yusif Yəhya oğlu, Əsgərov Əliabas Qafar oğlu, Səmədov Əliəhəd İbiş oğlu, Kərimov İman Abasəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Muxtarov Təzəxan Tərlan oğlu, Məlikov Mansur Kazım oğlu, Şükürova Əqidə Firudin qızı, Mustafayev Əli Adil oğlu, Axundov Nizami Yusif oğlu, Alışova Humay Bəhlul qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 09 iyun 2022-ci il

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

## *Dövlət qeydiyyatına alınaraq Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmiş dini qurumlar*

**"Masallı rayonu Şatıroba kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 08 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1-152

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəzərov Ramazan Fərman oğlu, Səfərov Bəhruz Feyruz oğlu, Maliyev Ümud Adıgözəl oğlu, Həsənov Həsənağa Gülağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Səfərzadə Əlihüseyn Səfər oğlu, Məmmədov Malik Şahrza oğlu, Nurullayev Sədrəddin Fəxrəddin oğlu, Həbibov Vasif Həbib oğlu, Səfərov Bəxtiyar Ağamalı oğlu, Mirzəcanov Afiq Mirzəkişi oğlu, Məmmədov Bəhruz Abı oğlu, Səfərov Nurəli Ağamalı oğlu, Maliyev Hakim Fəyyaz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Nəzərov Ramazan Fərman oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Səfərzadə Əlihüseyn Səfər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 iyun 2022-ci il

**"Bakı Krişna Şüuru" dini icması**
Qeydiyyat tarixi: 25 noyabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2-32

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Sayfutdinov Boris Naziroviç dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Xudiyev Nizami Mehman oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Əliyev Ramil Sadıq oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əhmədov Mahir Mirəhməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 iyun 2022-ci il

**"Şəki rayonu Orta Zəyzid kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 31 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A2-269

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məlikov Dilbər Nurullah oğlu, Qaffarov Şahin Əhməd oğlu, Bilalov Əyyub Nəzir oğlu, Hidayətov Bayram Məsim oğlu, İbrahimxəlilov Məmmədiyə Məmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mustafayev Habil Tafdıq oğlu, İlyazov Həsən Fikrət oğlu, Əyyubov Natiq Abdul oğlu, Məmmədov Telman Əfsər oğlu, Nurəddinov Nütvəli Ağənməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 21 iyun 2022-ci il

**"Lənkəran rayonu Kənarmeşə kəndi Bağıroba məhəllə məscidi" dini icması**
Qeydiyyat tarixi: 12 mart 2019-cu il
Qeydiyyat №-si: 100119C-897

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bağırov Fazil Xəlil oğlu, Bağırov Ramik Fərman oğlu, Babayev Tahir Nambulum oğlu, Bəşirov Hüseynağa Məhərrəm oğlu, Əkbərov Yaşar Nayib oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Ağayev Ramal Heydər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 23 iyun 2022-ci il

## LƏĞV OLUNMUŞ DİNİ QURUMLAR

**"Lənkəran rayonu Aşağı Nüvədi qəsəbə Küvənil kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 27.05.2008-ci il
Qeydiyyat №-si: 1308Lə1-491

"Lənkəran rayonu Aşağı Nüvədi qəsəbə Küvənil kənd məscidi" dini icması təsisçilərinin 25.05.2022-ci il tarixli, 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 14 iyun 2022-ci ildə qeydə alınıb.

**"Lənkəran rayonu Əşlə kənd məscidi" dini icması**
Qeydiyyat tarixi: 03.03.2008-ci il
Qeydiyyat №-si: 1308Lə1-445

"Lənkəran rayonu Əşlə kənd məscidi" dini icması təsisçilərinin 25.05.2022-ci il tarixli, 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 14 iyun 2022-ci ildə qeydə alınıb.

**"Gəncə şəhəri Yeddinci Günün Adventistləri" dini icması**
Qeydiyyat tarixi: 04.04.2002-ci il
Qeydiyyat №-si: 92

"Gəncə şəhəri Yeddinci Günün Adventistləri" dini icması təsisçilərinin 25.05.2022-ci il tarixli, 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 14 iyun 2022-ci ildə qeydə alınıb.

# ŞİRKƏTLƏRİN SÖZ VƏ İNANC AZADLIĞINA YANAŞMA REYTİNQİ HAZIRLANIR



ABŞ-ın "Azadlıq Müdafiəsi Alyansı" ən böyük şirkətlərin söz və inanc azadlığına münasibətinə əsaslanan reytinqini hazırlayır. "catholicnewsagency"-nin verdiyi xəbərə görə, bununla o, "öz nüfuzlarından istifadə edərək amerikalılar arasında ayrı-seçkilik edən, dinləri senzura və təqiblərə məruz qoyan" rəhbərləri təqib etmək niyyətindədir.

"Bəzi ABŞ şirkətləri söz və dini etiqad azadlığını məhdudlaşdıran daxili qaydalar tətbiq etdiyinə" görə, insan hüquqları üzrə QHT-lər – "Azadlıq Müdafiəsi Alyansı" (Alliance Defending Freedom) və "İnvestisiya təşviqi" (Inspire Investing) aparıcı şirkətləri "bu hüquqlara və dəyərlərə sadiqlik" üzrə qiymətləndirən "Biznes İndeksi" tərtib edir.

ADF-nin korporativ işlər üzrə baş vitse-prezidenti Ceremi Tedesko açıqlamasında bildirib ki, CEO-lar və biznes liderləri öz mövqelərində böyük gücə malikdirlər. "Onlar öz şirkətlərində bu gücdən və təsirdən amerikalılar arasında ayrı-seçkilik yaratmaq, onların nitqlərini senzura və ya dinlərini təqib etmək üçün istifadə etməməlidirlər. Tanınmış brendlərin mədəni təsirindən sosial qütbləşmə yaratmaq üçün istifadə olunmamalıdır. Biznes liderləri dinindən və ideologiyasından asılı olmayaraq, bütün işçilərin və istehlakçıların fikir və hüquqlarına eyni dərəcədə hörmət etməlidirlər".

"Biznes İndeksi"nin 2022-ci il üzrə ilk nəşrində "nöqteyi-nəzər müxtəlifliyi" şkalasına görə 50 şirkət qiymətləndirilib. Siyahıya bankçılıq, ödəniş emalı və bulud xidmətləri üzrə ixtisaslaşmış 50 aparıcı şirkət daxil edilib. ADF fəalları xüsusilə "rəqəmsal məkanda üçüncü tərəflərin ifadəsi üçün platforma kimi xidmət göstərən" şirkətlərin, yəni sosial şəbəkələrin fəaliyyətini tədqiq edirlər. Məsələn, söz və inanc azadlığını pozmaqda təqsirli görülən şirkətlərin siyahısına varlı sosial şəbəkələr olan Twitter, Meta və Alphabet daxil edilib.

# YENİ ARAŞDIRMA: YÜKSƏK İNTELLEKTLİ İNSANLAR TƏKBAŞINA DAHA XOŞBƏXTDİRLƏR



"British Journal of Psychology" bu yaxınlarda sosiallaşma bacarıqları və insan zəkasının şəxsiyyətlərarası davranışla əlaqəsinə diqqət çəkən yeni bir araşdırma dərc edib.

Əsas məqsəd yüksək intellektli və nisbətən az intellektə malik insanların dostlarının onların xoşbəxtliyinə necə təsir etdiyini öyrənmək idi. Alimlər belə bir nəzəriyyə irəli sürüblər ki, sıx tikintilərlə əhatələnən, sıx məskunlaşılan ərazilərdə yaşayan insanlar kəndlilərdən və şəhər kənarındakı sakinlərdən daha çox həyatlarından razıdırlar. Məntiq sadədir: insan qohumları və dostları ilə nə qədər tez-tez ünsiyyət qurursa, bir o qədər xoşbəxt olur. Şəhərlərdə isə evlər arasındakı məsafə daha az və "hər şey yaxınlıqda"dır. Buna görə də görüşmək daha asandır.

Paradoksal nəticələrə malik bu tədqiqatın müəllifləri professorlar Norman Li və Satoşi Kanazavadır. Onlar uzun illərdir ki, müxtəlif şəhərlərdə insanların yaşayış şəraitini öyrənirlər. Tədqiqatda 18-28 yaş arası 15.000 insan iştirak edib. Professorların sözlərinə görə, araşdırma təsdiqləyib ki, tez-tez ünsiyyətdə olmaq həyatdan məmnunluq baxımından olduqca önəmlidir: "Bəli, şəhərin mərkəzində və sıx məskunlaşan ərazilərdə yaşayan insanlar ümumiyyətlə hamıdan daha xoşbəxtdirlər. Amma bundan da önəmlisi intellektin təsiridir. Biz müəyyən etdik ki, son dərəcə ağıllı insanlar tək olduqda daha xoşbəxt olurlar. Ancaq dostları və tanışları ilə tez-tez ünsiyyət qurmaq məcburiyyətində qaldıqda o saat kədərlənməyə və ya özlərindən çıxmağa başlayırlar".

Başqa bir tədqiqatçı Kerol Qrehem bunun izahını belə verib: "Yüksək intellektə malik insanlar öz vaxtlarını daha aktiv keçirirlər. Həmsöhbətin dediklərini diqqətlə dinləmək çox vaxt onlara çətin gəlir, çünki onlar daim uzunmüddətli hədəflər üzərində düşünürlər".

Alimlər həmçinin müəyyən ediblər ki, yüksək intellektli insanlara öyrəşdikləri sosial mühitdən və yaşayış yerindən imtina etmək başqalarına nisbətən daha asandır. Başqalarından fərqli olaraq, onlar dostlarına və yaxınlarına o qədər də bağlı deyillər.

CƏMİYYƏT və DİN
№ 06 (368) İYUN 2022-ci il

# ƏRƏB ÖLKƏLƏRİNDƏ ƏN ÇOX ZİYARƏT EDİLƏN 10 MƏKAN



"Google" özünün küçə hərəkəti xəritə xidmətinin görüntülərinə əsasən Yaxın Şərq və Şimali Afrikada ən çox ziyarətçi axını olan 10 məkanın adını açıqlayıb.

2013-cü ildə ilk dəfə Birləşmiş Ərəb Əmirliklərində müşahidə aparan bu xidmət sonradan digər ərəb ölkələrini də əhatə edib. "Google"-un icmalına görə, sözügedən regionda ən çox ziyarət edilən məkan Dubayda inşa edilmiş, dünyanın ən hündür binası olan "Bürc Xəlifə"dir. Siyahıda ikinci yeri Məkkədəki müqəddəs Kəbə, ondan sonrakı yeri isə Misirdəki Giza nekropolu tutur. "İlk onluğ"a, həmçinin Məkkədəki Məscid əl-Haram, Misir ehramları və Sfinks heykəli, Mədinədəki Peyğəmbər məscidi, Dubaydakı "Bürc əl-Ərəb", Dubay fəvvarəsi və bu şəhərdəki Beynəlxalq Hava Limanı da daxildir.

# BRİTANİYADA DÖRDGÜNLÜK İŞ HƏFTƏSİ İLƏ BAĞLI EKSPERİMENT APARILIR

Böyük Britaniyada əməkhaqqı saxlanılmaqla dördgünlük iş həftəsinin yarımillik sınaqları keçirilir.

"Bloomberg" agentliyi xəbər verir ki, eksperimentdə iştirak edən kompaniyalarda 80 faiz iş vaxtı müqabilində 100 faiz məhsuldarlıq səviyyəsini saxlamaq şərti ilə tam əməkhaqqı ödəniləcək. Tədqiqata təhsil, bank, qida və digər sahələr daxil olmaqla, müxtəlif sferaları əhatə edən 70 kompaniyanın 3 min əməkdaşı cəlb edilib.

Tədqiqatçılar sınağın məhsuldarlığa və rifaha, həmçinin ətraf mühitə və gender bərabərliyinə təsirini öyrənmək üçün hər bir iştirakçı və təşkilatla ayrı-ayrılıqda işləyəcək.

Eksperiment "Autonomy" analitika mərkəzi, "4 Day Week UK" kompaniyası, həmçinin Kembric, Oksford universitetlərinin və Boston Kollecinin tədqiqatçıları ilə birgə "4 Day Week Global" təşkilatı tərəfindən həyata keçirilir.

Qeyd edək ki, bundan öncə İslandiyada 2 min 500 nəfərin iştirakı ilə dördgünlük iş həftəsi üzrə təcrübə uğurla sınaqdan keçirilib.

# İŞÇİLƏRİN OTURMADIĞI OFİS

Hollandiyalı memarlar "Oturmağı dayandır" adlı unikal incəsənət obyektini təqdim ediblər.

Bu layihənin ideyasına uyğun olaraq, memarlar ofis işçilərini fiziki hərəkətlərə və fəaliyyətə həvəsləndirmək üçün oturma yerləri olmayan bir ofis yaratmağı təklif ediblər.

Memarların fikrincə, ofis işi insanlarda 8 xəstəliyin, o cümlədən göz quruması, kürək və əzələ ağrısı, qastrit və depressiya kimi xəstəliklərin yaranmasına səbəb olur.



## Bakı və Abşeron üzrə namaz vaxtları (İyul - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:27 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:53 |
| 2 | 03:28 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:52 |
| 3 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 4 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 5 | 03:30 | 05:16 | 12:45 | 17:57 | 20:31 | 21:51 |
| 6 | 03:31 | 05:16 | 12:45 | 17:57 | 20:30 | 21:51 |
| 7 | 03:32 | 05:17 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 8 | 03:33 | 05:18 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 9 | 03:34 | 05:18 | 12:46 | 17:57 | 20:29 | 21:49 |
| 10 | 03:35 | 05:19 | 12:46 | 17:57 | 20:29 | 21:48 |
| 11 | 03:36 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:48 |
| 12 | 03:37 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:47 |
| 13 | 03:38 | 05:21 | 12:46 | 17:56 | 20:27 | 21:46 |
| 14 | 03:39 | 05:22 | 12:46 | 17:56 | 20:27 | 21:45 |
| 15 | 03:40 | 05:23 | 12:46 | 17:56 | 20:26 | 21:44 |
| 16 | 03:41 | 05:23 | 12:47 | 17:56 | 20:26 | 21:43 |
| 17 | 03:42 | 05:24 | 12:47 | 17:55 | 20:25 | 21:42 |
| 18 | 03:44 | 05:25 | 12:47 | 17:55 | 20:24 | 21:41 |
| 19 | 03:45 | 05:26 | 12:47 | 17:55 | 20:23 | 21:40 |
| 20 | 03:46 | 05:27 | 12:47 | 17:54 | 20:23 | 21:39 |
| 21 | 03:47 | 05:27 | 12:47 | 17:54 | 20:22 | 21:38 |
| 22 | 03:48 | 05:28 | 12:47 | 17:54 | 20:21 | 21:37 |
| 23 | 03:50 | 05:29 | 12:47 | 17:53 | 20:20 | 21:36 |
| 24 | 03:51 | 05:30 | 12:47 | 17:53 | 20:19 | 21:35 |
| 25 | 03:52 | 05:31 | 12:47 | 17:52 | 20:19 | 21:33 |
| 26 | 03:54 | 05:32 | 12:47 | 17:52 | 20:18 | 21:32 |
| 27 | 03:55 | 05:33 | 12:47 | 17:51 | 20:17 | 21:31 |
| 28 | 03:56 | 05:34 | 12:47 | 17:51 | 20:16 | 21:30 |
| 29 | 03:58 | 05:35 | 12:47 | 17:50 | 20:15 | 21:28 |
| 30 | 03:59 | 05:35 | 12:47 | 17:50 | 20:14 | 21:27 |
| 31 | 04:00 | 05:36 | 12:47 | 17:49 | 20:12 | 21:25 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# YENİ TƏDQİQAT: YAŞLILAR VİDEOOYUNLARLA UŞAQLARDAN DAHA ÇOX MƏŞĞUL OLUR

ABŞ-ın 215 milyondan çox sakini, yəni ölkə əhalisinin təqribən üçdə iki hissəsi müntəzəm olaraq videooyunlarla məşğul olur.

2022-ci il üçün "Videooyunlar sənayesi haqqında əsas faktlara dair hesabat"ın müəllifləri bu qənaətə gəliblər.

Videooyun iştirakçılarının dörddə üç hissəsi yaşı 18-dən yuxarı olan şəxslərdir. Vaşinqtonda fəaliyyət göstərən və ABŞ-da videooyunlar sənayesinin müdafiəçisi kimi çıxış edən Əyləncəli Proqram Təminatı Assosiasiyasının sifarişi haqqında aparılmış tədqiqata dair hesabatdan məlum olur ki, hazırda videooyun iştirakçılarının orta yaşı 33-ə bərabərdir.

Ən populyar oyun platforması smartfondur. Respondentlərin 70 faizinin fikrincə, oyunlar üçün ən münasib qurğu məhz smartfondur. Sonrakı yerləri kompüterə qoşulan oyun qurğusu (52 faiz), fərdi kompüter (43 faiz), planşet/iPad (26 faiz) və virtual reallıq qarnituru (7 faiz) tutur. Respondentlərin təqribən 60 faizi bildirib ki, onlar bir neçə qurğuda oynamağı xoşlayırlar.

Yaşı 65-dən yuxarı olan oyunçuların əksəriyyəti (68 faiz) "beyinlərini işlətmək" üçün oynadıqlarını bildiriblər. Kişi respondentlərin üçdə iki hissəsi əylənmək (67 faiz) və vaxtını keçirmək üçün (66 faiz) oynayırlar. Respondent qadınların üçdə iki hissəsi vaxt keçirmək (70 faiz), habelə dincəlmək və istirahət etmək üçün (66 faiz) oynayır. Tədqiqat müəlliflərinin sözlərinə görə, daha bir maraqlı fakt ondan ibarətdir ki, oyunçuların 48 faizi qadınlar, 52 faizi kişilərdir. Bu o deməkdir ki, gender bölgüsü təqribən bərabərdir.

Hesabatda həm oyunçuların kateqoriyaları, həm də onların videooyunlarla məşğul olmasının səbəbləri aşkar edilib.

Tədqiqatçıların sözlərinə görə, populyar səbəblər ondan ibarətdir ki, videooyunlar oyunçulara sevinc gətirir (93 faiz), onların zehni stimulyasiyasını təmin edir (91 faiz) və stresi aradan qaldırır (89 faiz).

## Yadigar söz

**M.F.Axundzadə**

*Əsl yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, özünün bütün hərəkət və davranışlarını əsl vətənpərvərliklə uyğunlaşdırsın.*

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894